

# Azərbaycanda 3 hakimin səlahiyyətlərinə xitam verildi

*Prezident İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri hakimlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında Sərəncam imzalayıb. "Unikal" xəbər verir ki, Sərəncama əsasən, aşağıdakı hakimlərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib:*

Səh.2



## Əbülfəs Qarayevin özündən arxayınlığının sirri...

UNİKAL

№23 (2108) 1 iyul 2022-ci il

Qiymәti 50 qәpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



# Bakıdan beynəlxalq ədalətsizliyə sərt təpki

Səh.3

## Sabiq nazirin ailə üzvləri borclarını niyə vaxtında ödəmir?

*Bu günlərdə məlum oldu ki, sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin ailə üzvlərinə məxsus olan şirkətlər dövlət büdcəsinə olan vergi öhdəliyini vaxtında ödəməyiblər. KİV-in yazdıqlarına görə, rəsmi məlumatlardan aydın olur ki, sabiq mədəniyyət nazirinin qızı Suad Qarayevanın (Maleki) adının baş hərflərindən götürülən "SQ-Future" MMC-nin (VÖEN - 1700495641) dövlət büdcəsinə 5 min 297 manat 83 qəpik vergi borcu var. "SQ-Future" MMC-nin qeydiyyatda olduğu Müslüm Maqomayev küçəsi, ev 22 ünvanında sabiq nazirin həyat yoldaşı Lalə Tofiq qızı Kazımovanın (Azərbaycan SSR xalq artisti, rejissor Tofiq Kazımovun qızı) direktor olduğu "Yol+İlk Elmi-Populyar..*

Səh.5

## "Deputatların da xərcləri böyüyüb"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədov "Unikal"a müsahibə verib. Deputat ərzaq qiymətlərinin bahalaşmasından, əməkhaqqı və pensiyalardan, millət vəkillərinin maaşlarının artırılmasından və başqa məsələlərdən danışıb.*

Səh.4

## "Şagirdlərin süni nəticələrlə yox, addım-addım irəli getməsini düşünürük" - Nazir



*"Azərbaycan təhsillə əlaqəli olimpiada hərakatı ilə bağlı işlərin böyük əksəriyyətini uğurla icra edir. Bu işdə bilik və bacarıqla yanaşı, vaxt da lazımdır. Nəticələrin yaxşı olması üçün sistemli iş qurulub. Bir çox liseylərimiz dünyada seçilən bilən nəticələr göstəriblər".*

Səh.2

## Gənclər və İdman Nazirliyinin keçmiş rəhbərliyi ilə bağlı yeni sensasion iddialar



*Yola salmaq üzrə olduğumuz həftə Gənclər və İdman Nazirliyinin növbəti Kollegiya iclası keçirildi. İclasda kollegiyanın qərarına əsasən, daha bir neçə idman federasiyasının ("Həvəskar Universal Döyüş Federasiyası" İB, "Qarabağ-Əlil Döyüşçülər Futbol Federasiyası" İB, "Azərbaycan Peşəkar Boks Federasiyası" İB)...*

Səh.2

# Ali Məhkəmə Mətanət İsgəndərlinin nəvələri ilə bağlı qərar verdi

***Əməkdar artist Mətanət İsgəndərlinin oğlu Kərimlə keçmiş gəlini Canana arasındakı məhkəmə prosesi başa çatıb.***

"Unikal" axsam.az-a istinadən xəbər verir ki, Apellyasiya Məhkəməsindən sonra iş Ali Məhkəməyə yollanıb. Canana isə ötən gün Ali Məhkəmənin qərar verdiyini açıqlayıb.

O bildirib ki, hakim 3 uşağın qəyyumluğunu anaya verib: "Qalibəm və xoşbəxtəm, bu gün vəkilim 3 övladımı da Ali Məhkəmənin mənə verdiyi xəbərini çatdırdı. Artıq mən də rahat nəfəs ala biləcəm. Mənə bu yolda dəstək olan hər kəsə təşəkkür edirəm. Balalarımın üçü də mənim adımdadır. Çox şükür".





Canana bildirib ki, qarşı tərəfdən tələb etdiyi bütün hər şeydən imtina edib. "Balalarımın yanımda olmasını, ögey anayla yaşamamasını istəyirəm. Övladlarımı öz tərbiyəmlə böyütmək istəyirəm. Onları düz yola aparım" deyə, Canana əlavə edib.

Qeyd edək ki, Kərim və Canana ötən ilin oktyabrında qalmaqallı şəkildə boşanıb. Üç uşağın qəyyumluğu ataya verilib. Canana daha sonra Apellyasiya məhkəməsinə müraciət edərək, uşaqları geri alıb. Bu qərarla razılaşmayan Kərim Ali Məhkəməyə müraciət edib. Kərim ikinci dəfə ailə qurub və yenidən ata olmağa hazırlaşır.

Canana isə M.İsgəndərlinin evinə gedərək onunla barışıb.

# Zaur Kamal efirdə baş verənlərə görə cəzalanacaq



***"Zaur Kamalın efirdəki son davranışı ilə bağlı ölçü götürüləcək". Bunu açıqlamasında Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli bildirib.***

O, televiziyanın hər evə sirayət etdiyini və bu səbəbdən də televiziya mühiti üçün konkret standratların olduğunu deyib: "Efirin öz şərtləri və mədəniyyəti var. Televiziya auditoriyaya ən çox nüfuz edən kommunikasiya vasitələrindən biridir. Bunları nəzərə alaraq efirin konkret standartları müəyyənləşib. Bu isə bizim qanunverici işlərlə tənzimlənir. Efirdə gedən verilişlərə nəzarət edən, monitorinq aparan Audiovizual Şura var. Şuranın işində isə son zamanlar kifayət qədər yeniliklər olub və görürük ki, təşkilat bütün televiziyaları diqqətlə monitorinq edib, adekvat addımlar atır".

M.Ələsgərli Zaur Kamalın milli-mənəvi dəyərlərə zidd davranış sərgiləməməli olduğunu vurğulayıb: "Hesab edirik ki, efirdə milli-mənəvi dəyərlərə, ictimai davranışlara zidd hərəkətlərə yol verilməsi yanlış addımdır. Bu kimi hallar sonradan insident yaradır və belə hallar başqaları tərəfindən təkrarlana bilər. Odur ki, Zaur Kamalın davranışı ilə bağlı ölçü götürülməlidir. Audiovizual Şura bu məsələ ilə bağlı xəbərdaredici addımlar atacaq"(sfera.az).

Xatırladaq ki, "ARB" kanalında yayımlanan "Həmin Zaur" verilişində proqramın aparıcısı Zaur Kamal və iranlı müğənni Afşin Azərin arasında mübahisə yaranıb. Mübahisə əsnasında aparıcı qonağı efirdən qovub.

# Məleykə Əsədovanın qızı məzun oldu

***Xalq artisti Məleykə Əsədovanın qızı Gülər məzun olub.***

Aktrisa övladının məzun günündən fotolar paylaşaraq, təəssüratlarını yazıb: "Şükür olsun Allahıma, qızımın son zəngini gördüm. Son zəng... Çox şükürolsun mənim ağıllı qızım məktəbi bitirdi. Məktəbdə oxuduğu illərdə Gülərimə dərs deyən müəllim kollektivinə təşəkkür edirəm. Təhsil aldığı 11 il ərzindəmüəllimlər hər zaman qızımın savadından, tərbiyəsindən gözəl fikirlər söylədilər. Qızım bu illər ərzində tərbiyəsi və mədəniyyəti ilə başımı uca edib. Birinci sinfə getdiyim gün - ilk məktəb günü bügünki kimi yadımdadır. Gözəl Allahım qızımı, bütün övladları xoşbəxt etsin. Ən əsası sağlam can və ağıl arzu edirəm. Allah valideynləri övladı ilə sevindirsin. Ürəyim qızımın aldığı nəfəslə döyünür".

# MTV Kərimin efirdə qadınları təhqir etməsinə görə cərimələndi



***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Audiovizual Şurasının yayım zamanı qanunvericiliyin pozulması faktı ilə əlaqədar iclası keçirilib.***

Bu barədə Şura məlumat yayıb. Bildirilib ki, iclasda "MTV" televiziya kanalının efirində 25 iyun 2022-ci il tarixdə saat 12.00-13.00 arası yayımlanan "MTV maqazin" proqramında "Media haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.4-cü maddəsinin (irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkiliyin təbliğ olunması) tələbinin pozulması faktı müzakirə olunub.

Aparılan müzakirələrdən sonra Azərbaycan Respublikası Audiovizual Şurası "Muz TV Azərbaycan" peyk yayımı həyata keçirən platforma yayımçısına bir daha belə halın təkrarlanacağı təqdirdə ciddi inzibati sanksiya tətbiq ediləcəyi ilə bağlı xəbərdarlıq edilməsi barədə qərar qəbul edib.

Buna səbəb isə Kərimin boşanan qadını efirdə təhqir etməsi olub.



# Səfər Mehdiyev əməliyyat müşavirəsi keçirdi

***Dövlət Gömrük Komitəsində cari ilin 6 ayının yekunlarına dair əməliyyat müşavirəsi keçirilib. Müşavirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, Komitə sədrinin müavinləri, aidiyyəti strukturların rəhbərləri iştirak edib.***

"Unikal" xəbər verir ki, Komitə sədri Səfər Mehdiyev çıxış edərək cari ilin müvafiq dövrü ərzində görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizləri üzərində yerləşən ölkəmizin iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı, tranzit və ixrac imkanlarının daha da artırılması məqsədilə irimiqyaslı layihələr həyata keçirilir. Komitə sədri vurğulayıb ki, regionda formalaşan yeni reallıqlar və çağırışlar fonunda qarşıya qoyulan hədəflərin uğurla icra olunmasında gömrük orqanlarının üzərinə də mühüm vəzifələr düşür. Belə ki, gömrük əməliyyatlarının və sərhədkeçmə proseslərinin asan və sürəli şəkildə həyata keçirilməsi, idxal-ixrac əməliyyatlarnın daha da sadələşdirilməsi, vaxta və vəsaitə qənaət edilməsi, bir sözlə gömrük işinin səmərəli şəkildə təşkili ölkəmizdən keçən nəqliyyat dəhlizlərinin cəlbediciliyinin, ixrac və tranzit potensialının artırılmasında mühüm rol oynayır.

Komitə sədri cari ilin 6 ayı ərzində gömrük orqanlarının fiskal sahədə qarşıya qoyulan məqsədlərin icrasında, qaçaqmalçılıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə mühüm nailiyyətlər əldə etdiyini vurğulayıb, qarşıdakı aylarda da bu istiqamətdə fəaliyyətin daha effektiv təşkili üçün konkret tapşırıq və tövsiyyələrini bildirib. Səfər Mehdiyev mövsümlə əlaqadar, xüsusilə kənd təsərrüfatı məhsullarının ixracında artım müşahidə olunduğunu diqqətə çatdırıb və ixrac əməliyyatlarının sürətləndirilməsi, sərhədkeçmə proseslərinin təkmilləşdirilməsi, gömrük-keçid məntəqələrində yarana biləcək sıxlıqların aradan qaldırılması məqsədilə yük nəqliyyat vasitələrinin keçidinin elektron növbə prinsipi ilə təşkili istiqamətində müvafiq strukturlara tapşırıqlar verib.

# Daha 7000 nəfərə "Müharibə veteranı" adı verilib

***Müdafiə Nazirliyinin tərkibində fəaliyyət göstərən komissiya tərəfindən 7000 nəfərdən artıq vətəndaşın da Vətən müharibəsində iştirakı ilə bağlı məlumatlarının araşdırılması yekunlaşdırılaraq sənədləri "Müharibə veteranı" adının verilməsi məqsədilə qərar qəbul edilməsi üçün müvafiq komissiyaya göndərilib.***

"Unikal" xəbər verir ki, bu barədə nazirliyin "Facebook" səhifəsində məlumat paylaşılıb.

Bildirilib ki, arayış-məlumatları göndərilən vətəndaşlar barədə qərar qəbul edildikdən sonra onların da adları "Müharibə veteranı" adının verilməsi üçün "Zəfər" altsisteminə daxil ediləcəkdir.

"Bundan sonra onlara da Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün (80 AZN) təyin edilməsi və 2022-ci ilin yanvar ayının 1-dən hesablanaraq ödənilməsi təmin olunacaq".

Qeyd edək ki, bu günədək Vətən müharibəsində iştirak etmiş 76000 nəfərə "Müharibə veteranı" adı verilib.

# İcra başçılarının "kəsilən sağ əli"...

## Bir çox şəhər və rayonlarda Memarlıq və Tikinti şöbələrinin müdirlərinin-baş memarların həbsi hansı gizlinlərdən xəbər verir?

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları Sabirabad rayon İcra Hakimiyyətində əməliyyat keçirib. İdarə əməkdaşları əməliyyat zamanı Sabirabad rayon İcra Hakimiyyətinin Memarlıq şöbəsinin müdiri-baş memarı Qasımov Müşviq Vidadi oğlunu saxlayıblar. İlkin məlumatlarda onun rüşvət alarkən yaxalandığı bildirilir.***

Baş Prokurorluğun mətbuat xidmətindən Trend-in sorğusuna cavab olaraq bildirilib ki, qeyd edilən faktla bağlı ictimaiyyətə açıqlama veriləcək.

Xatırladaq ki, son zamanlar saxlanılan məmurlar arasında yerli icra hakimiyyətlərinin tabeliyindəki Memarlıq şöbəsinin müdiri-baş memar postlarını tutanlara tez-tez rast gəlirik. Məsələn, bir müddət əvvəl Abşeron rayon Memarlıq və Tikinti şöbəsinin keçmiş müdiri Akif Əliyev saxlanılmış, sonradan məhkəmə tərəfindən onun barəsində 10 il 6 ay həbs qərarı çıxarılmışdı. Düzdür, o, qısa müddət sonra azadlığa buraxılmışdı, bununla belə, sabiq müdir-baş memarın qanunsuz əməli yetərincə ağır idi: vətəndaşa tikinti üçün hər hansı layihə hazırlanmadan və rayon İcra Hakimiyyətinə tikintiyə icazə üçün rəsmi qaydada müraciət olunmadan müəyyən rüşvət qarışlığında tikinti aparılması üçün ümumi himayədarlığı həyata keçirdiyi üçün həbs edilmişdi.

Və yaxud: iki il öncə Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumata görə, Neftçala Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı cinayət əməllərinə yol verməmələrinə dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri zamanı rayonun sabiq icra başçısı İsmayıl Vəliyevlə yanaşı, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev də saxlanılmış, onun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilmişdi.

Yenə bir müddət əvvəl Gəncə şəhər İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin müdiri vəzifəsində işləmiş Məharət Mustafayev həbs olunmuşdu. O, həmin vəzifəni tutarkən torpaq sahəsinə dair müvafiq sənədləşmənin aparılması üçün rəhbəri olduğu şöbənin mühəndisi vasitəsi ilə vətəndaşdan 9 min manat məbləğdə pul vəsaitini rüşvət qismində istəyərək almaqda və qeyd edilən hərəkətləri ilə vətəndaşların qanunla qorunan maraqlarına ziyan vurmaqda günahlandırılırdı.

Bu cür faktların sayını artırmaq olar, lakin gərək görmür və vacib bir suala cavab axtarmağı daha vacib sayırıq: müxtəlif şəhər və rayon icra hakimiyyətlərinin Memarlıq və Tikinti şöbələrinin müdirlərinin-baş memarlarının həbsi niyə bu qədər intensivləşib?

Bəzi ekspertlərin fikrincə, bu təsadüfi deyil: "İstənilən şəhər və rayonda tikinti fəaliyyəti yerli məmurlar üçün ən "gəlirli" iş hesab olunur. Belə ki, həmin fəaliyyətlə məşğul olmaq istəyənlərə müxtəlif bəhanələrlə əngəl yaradılır, hətta bütün instansiyalardan keçən, qanunvericilikdə nəzərdə tutulan prosedurları keçən şəxslərə qarşı süni manеələr ortaya atılır, süründürməçiliyə yol verilir. Bu proses isə məhz şəhər və rayonların Memarlıq və Tikinti şöbələrinin müdirləri-baş memarları vasitəsilə həyata keçirilir. Əslində həmin postların sahibləri də özbaşına deyillər. Onlar birbaşa icra başçılarının tapşırıqları ilə hərəkət edirlər. Hansısa tikinti fəaliyyətinə icazə üçün alınan rüşvətin ən yaxşı halda 20-25 faizi baş memarlara çatır, pulun qalan böyük hissəsi isə rayon rəhbərlərinin cibinə gedir. Hazırda şəhər və rayonların Memarlıq və Tikinti şöbələrinin müdirləri-baş memarları həmin şəhər, yaxud rayonun icra başçısından ötrü "sağ əl" funksiyasını yerinə yetirirlər, çünki icra başçısına digər idarə, şöbə müdirlərindən daha çox "qazanc" gətirirlər".

Ekspertlər hesab edirlər ki, bunu nəzərə aldıqda hansısa şəhər və ya rayonların Memarlıq və Tikinti şöbələrinin müdiri-baş memarı cinayət məsuliyyətinə cəlb olunursa, proses həmin şəhər, yaxud rayonun icra başçısından yan keçməməlidir: "Çünki heç bir baş memar rayon rəhbərindən xəbərsiz kimsədən qəpik də rüşvət ala bilməz. Bunu sıravi vətəndaş da, iş adamı da bilir. Elə həbs olunan sabiq icra başçılarının cinayət işlərinə nəzər saldıqda da bunu aydın görə bilərik. Odur ki hər hansı şəhərdə, rayonda Memarlıq və Tikinti şöbələrinin müdirinin-baş memarın həbsinə hüquqi baxımdan daha geniş aspektdə yanaşılmalıdır".



Beləliklə, hələlik biz bir sıra şəhər və rayonlarda icra başçılarının "sağ əli" kimi qəbul edilən Memarlıq və Tikinti şöbələrinin müdirlərinin-baş memarların həbsi prosesini izləyirik. Bu proseslərin gələcəkdə həmin rayonların, şəhərlərin indiki, yaxud keçmiş başçılarına hər hansı "sürpriz" təşkil edib-etmədiyini isə zaman göstərəcək...

***Toğrul Əliyev***

# Azərbaycan liderinin Türkmənistandan verdiyi mühüm mesajlar

## Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzləridir və Şərq-Qərb Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır

***Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri başa çatdı. Səfər çərçivəsində Prezident iyunun 29-da Türkmənistanın paytaxtı Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak edib. Zirvə Toplantısı çərçivəsində geniş tərkibdə görüş keçirilib. Azərbaycan Prezidenti sözügedən tədbirdə çıxışı zamanı bir sıra mühüm məqamlara toxunub.***

Bu barədə fikirlərini "Unikal"la politoloq Turan Rzayev bölüşüb. O bildirib ki, Prezident çıxışı zamanı Türkmənistan ilə Azərbaycan arasındakı münasibətlərə toxunaraq Türkmənistanın keçmiş Prezidenti, Türkmənistan Parlamentinin Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovu yubileyi münasibəti ilə təbrik edib. Bundan başqa, Prezident Sərdar Berdiməhəmmədovu da prezident seçilməsi münasibəti ilə təbrik edib:

İlk başda bu adi protokol və siyasi etiket qaydaları kimi görünsə də, Prezidentin Türkmənistana və onun dövlət başçılarına yanaşması xüsusi diqqət çəkir. Belə ki, Türkmənistan Şimali Koreyadan sonra dünyanın ikinci ən qapalı ölkəsi hesab edilir. Bundan başqa, bu ölkə xarici siyasətdə olduqca ehtiyatlı və kövrək davranış sərgiləyir.

Rəsmi Bakı buna baxmayaraq, hazırda Türkmənistan ilə ən sıx xarici siyasət aparan ölkədir. Türkmənistanın geosiyasi mövqeyi, enerji resursları ilə zənginliyi, Xəzəryanı ölkə olması və ən nəhayət, digər türk respublikalarına sərhədinin olması bu ölkəni Bakı və türk ittifaqı üçün vacib edir. Yaxın keçmişdə iki ölkə arasında münasibətlər vaxtaşırı pisləşsə də, hazırda münasibətlər tarixinin ən yaxşı dövrünü yaşayır. Rəsmi Bakı indiki məqamda Türkmənistanla siyasətini iki prioritet əsasda inkişaf etdirir.

1. Türkmən qazının TANAP və TAP ilə Avropaya nəqli;

2. Türkmənistanın türk birliyinə inteqrasiyası.

Politoloq bildirib ki, Azərbaycan Avropanın alternativ enerji təminatçısı olmaq istəyirsə, bunu təkbaşına öz təbii ehtiyatları ilə edə bilməyəcəyini bilir. Buna görə də Mərkəzi Asiyanın neft və qazla zəngin ölkələri ilə əməkdaşlığı inkişaf etdirməkdə daim maraqlıdır:

"Təsadüfi deyil ki, bir müddət öncə ölkə başçısı Prezident İlham Əliyevin Özbəkistana səfəri zamanı görünən isti münasibət onun Türkmənistan səfərində də müşahidə edildi. İkincisi, Prezident çıxışı zamanı Azərbaycanın böyük əhəmiyyət verdiyini, Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiyanın tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Ölkə başçısının çıxışı zamanı bu məsələyə toxunması heç də təsadüfi deyil. Belə ki, 2018-ci ildə Aktauda imzalanmış Konvensiya Xəzərin hüquqi statusuna dair imzalanmış ilk belə rəsmi razılaşmadır. Düzdür, sənəd hələ ki, qüvvəyə minməyib. Bunun əsas səbəbi də İranın hər vəchlə prosesi kölgələməsi, əsassız tələblər irəli sürməsidir. Buna görə də Prezident çıxışı zamanı açıqca bildirdi ki, sənəd Xəzərin hüquqi statusunu müəyyən edib.

Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərimizin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq.

Üçüncüsü, Prezidentin çıxşında ən diqqətçəkən məqam şübhəsiz ki, onun Transxəzər beynəlxalq nəqliyyat marşrutu ilə bağlı fikirləri oldu. Prezident qeyd edib ki, Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzləridir və Şərq-Qərb Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır: "Biz Transxəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli istifadəsinə səy göstəririk. Bu marşrut Xəzəryanı dövlətlərin nəqliyyat potensialından maksimum dərəcədə istifadə etməyə imkan verəcək və nəqliyyat infrastrukturunun inkişafına dair yeni layihələrin həyata keçirilməsinə şərait yaradacaq".

Transxəzər beynəlxalq nəqliyyat marşrutu ifadəsi ümumi məna daşısa da, Prezidentin burada verdiyi mesaj əslində Transxəzər boru kəməridir. Rəsmi Bakının enerji siyasətinin bəlkə də ən önəmli layihəsi məhz Transxəzərdir. Təəssüf ki, bir sıra xarici təsirlərə görə layihə bu gün də icra edilməyib və layihə olaraq qalmaqdadr. Bununla belə, Prezident İlham Əliyev az qala hər sammitdə bu layihəyə birbaşa və ya dolayı yolla toxunaraq ölkələrin, xüsusilə də Rusiyanın nəbzini yoxlayır.

Transxəzər layihəsi reallaşsa Mərkəzi Asiya ölkələrinin neft və qazı Azərbaycana, daha sonra isə rəsmi Bakının icra etdiyi layihə ilə Avropa bazarına çıxarıla bilər.

Dördüncüsü, çıxışı zamanı Prezidentin qeyd etdiyi "bizim qarşılıqlı fəaliyyətimizin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir" ifadəsi də diqqət çəkir.

Aydın məsələdir ki, indiki məqamda iki ölkə - İran və Rusiya digər ölkələrin daxili işlərinə qarışır, ərazi bütövlüyünə hörmətsizlik edir. Düzdür, ölkə başçısı çıxışında birbaşa bu ölkələri hədəf almasa da rəsmi Tehran və Moskvanın siyasəti hər kəsə məlumdur. Xüsusilə İranın son zamanlar Azərbaycan daxilində inanclı şəxslər üzərindən apardığı propaqanda faktiki olaraq bu ölkənin Azərbaycanın daxili işlərinə qarışmaq cəhdidir".




***Z.Məmmədli***



# Özbəkistan Senatının sədri Prezidentin qəbulunda

***Prezidenti İlham Əliyev Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edib.***

"Unikal" xəbər verir ki, Tənzilə Narbayeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını Azərbaycan Prezidentinə çatdırıb.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Şavkat Mirziyoyeva çatdırmağı xahiş edib.

Prezident İlham Əliyev Özbəkistana dövlət səfərinin nəticələrindən çox məmnun olduğunu vurğulayıb, göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, səfərin çox məzmunlu olduğunu qeyd edib. Səfər zamanı razılaşdırıldığı kimi, aidiyyəti dövlət qurumlarına tapşırıqların verildiyini, əldə edilmiş razılaşmaların həyata keçirilməsi üçün bu məsələlərin müntəzəm olaraq nəzarətdə saxlanılacağını deyib. Dövlət başçısı səfərin ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin nə dərəcədə güclü olduğunu bir daha nümayiş etdirdiyini bildirib.

Bakıda keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın vacibliyini vurğulayıb, hazırda Hərəkatın təsisatlanması istiqamətində Azərbaycan tərəfindən bir sıra təşəbbüslərin həyata keçirildiyini qeyd edib.

Tənzilə Narbayeva Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinin Prezident Şavkat Mirziyoyevə və Özbəkistan xalqına dərin təəssürat hissi bağışladığını xüsusi olaraq vurğulayıb. Bu səfərin nəticəsi olaraq Özbəkistan rəhbərliyi tərəfindən müvafiq qurumlara göstərişlərin verildiyini bildirib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edən Tənzilə Narbayeva Ulu Öndərin Özbəkistan ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişafına böyük töhfə verdiyini qeyd edib, Prezident İlham Əliyevin onun siyasətini uğurla davam etdirdiyini deyib.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını qeyd edən Özbəkistan Senatının sədri ölkəmizə səfəri çərçivəsində Şuşaya gedəcəklərini vurğulayıb. Qonaq bu gün Azərbaycanın dünyada siyasi, iqtisadi və humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrildiyini qeyd edib.

Tənzilə Narbayeva Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının müvəffəqiyyətlə keçirildiyini deyərək bu tədbirə dəvətə görə təşəkkürünü bildirib. O, bu tədbirin keçirilməsi ilə bağlı təşəbbüsün müəllifinin məhz Prezident İlham Əliyev olduğunu xüsusi vurğulayıb, Azərbaycanın çox səmərəli şəkildə Hərəkata sədrlik etdiyini söyləyib.

Söhbət zamanı ölkələrimiz arasında parlamentlərarası əlaqələrin vacibliyi qeyd olunub. Parlamentlərin dövlət başçıları tərəfindən əldə olunmuş razılaşmaların həyata keçirilməsi prosesinə dəstək verəcəyi xüsusi vurğulanıb.

Qonaq ölkəmizə hər səfərlərində Bakıda böyük inkişaf proseslərinin şahidi olduqlarını bildirib.

# Prezident Mustafa Şentopu qəbul edib



***İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopu qəbul edib.***

"Unikal" xəbər verir ki, görüşdə Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Türkiyə parlamentinin sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının əhəmiyyətini vurğuladı, Azərbaycanın Hərəkata sədrliyi müvəffəqiyyətlə həyata keçirdiyini bildirdi.

Mustafa Şentop Azərbaycan ilə Türkiyə arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Türk Dövlətləri Təşkilatı, TÜRKPA çərçivəsində əməkdaşlığın vacibliyini qeyd edən Mustafa Şentop İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının üçüncü ümumi konfransı ilə əlaqədar bir müddət əvvəl Azərbaycanda səfərdə olduğunu məmnunluqla xatırladı.

Söhbət zamanı 2019-cu ildə Azərbaycanda Qoşulmama Hərəkatının Zirvə görüşü keçirilərkən Türkiyənin ölkəmizin xüsusi dəvəti ilə tədbirdə iştirakının əhəmiyyəti vurğulandı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının fəaliyyətinin daha da inkişaf etdirilməsinə, onun təsisatlanmasına mühüm əhəmiyyət verdiyini və bu istiqamətdə bir sıra təşəbbüslərlə çıxış etdiyini bildirdi.

Vətən müharibəsi zamanı Qoşulmama Hərəkatına üzv dövlətlərin BMT Təhlükəsizlik Şurasında Azərbaycana göstərdiyi dəstəyin əhəmiyyəti qeyd olundu.

# Azərbaycanda 3 hakimin səlahiyyətlərinə xitam verildi

***Prezident İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri hakimlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, aşağıdakı hakimlərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib:

Bağırov Məhəmməd Abdulləli oğlu - Füzuli Rayon Məhkəməsinin hakimi və sədri

Əmirxanova Kəmalə Fərman qızı - Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi

Mustafayev Nofəl Qara oğlu - Tovuz Rayon Məhkəməsinin hakimi.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Füzuli Rayon Məhkəməsinin hakimi və sədri Məhəmməd Bağırov 1972-ci ildə anadan olub. 1994-cü ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. 1998-ci ildə Goranboy Rayon Polis Şöbəsində İstintaq Bölməsində müstəntiq, 1998 - 2001-ci illərdə Gəncə Şəhəri Nizami Rayon Polis Şöbəsində müstəntiq, 2001 - 2004-cü illərdə Gəncə Şəhər Polis İdarəsinin İstintaq və təhqiqat şöbəsində təhqiqatçı, 2004 - 2005-ci illərdə



Gəncə Şəhəri Nizami Rayon Polis Şöbəsində Təhqiqat Bölməsində təhqiqatçı, 2005 - 2010-ci illərdə Gəncə Şəhər Polis İdarəsinin Təhqiqat şöbəsində baş təhqiqatçı, Təşkilati inspektor bölməsinin rəisi və 2010-cu ildən indiyədək isə Tovuz Rayon Məhkəməsinin hakimi olub.

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi Kəmalə Əmirxanova 1965-ci ildə anadan olub. 1987-ci ildə Moskva Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. 1987 - 1989-cu illərdə Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda ekspert, baş ekspert, 1993 - 1994-cü illərdə Baş Prokurorluqda Məhkəmə aktlarının qanuniliyinə nəzarət idarəsinin cinayət işləri üzrə şöbəsinin prokuroru, 1994 - 2000-ci illərdə Baş Prokurorluqda Cinayət işləri üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsinin prokuroru, 2000 - 2008-ci illərdə Baş Prokurorluqda Hüquqi təminat şöbəsinin prokuroru, 2008 - 2013-cü illərdə Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin hakimi, 2013-cü ildən bugünədək Bakı Şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsində çalışıb.

Tovuz Rayon Məhkəməsinin hakimi Nofəl Mustafayev 1972-ci ildə anadan olub. 1994-cü ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində ali təhsil alıb. 1998-ci ildə Goranboy Rayon Polis Şöbəsində İstintaq Bölməsində müstəntiq, 1998 - 2001-ci illərdə Gəncə Şəhəri Nizami Rayon Polis Şöbəsində müstəntiq, 2001 - 2004-cü illərdə Gəncə Şəhər Polis İdarəsinin İstintaq və təhqiqat şöbəsində təhqiqatçı, 2004 - 2005-ci illərdə Gəncə Şəhəri Nizami Rayon Polis Şöbəsində Təhqiqat Bölməsində təhqiqatçı, 2005 - 2010-cu illərdə Gəncə Şəhər Polis İdarəsinin Təhqiqat şöbəsində baş təhqiqatçı, Təşkilati inspektor bölməsinin rəisi, 2010-cu ildən indiyədək isə Tovuz Rayon Məhkəməsinin hakimi işləyib.

***Anar Kəlbiyev***

# Kamran Əliyev sabiq prokurora yeni vəzifə verdi



***Salyan rayonunun keçmiş prokuroru Firdovsi Nemətliyə yeni vəzifə verilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı Baş prokuror Kamran Əliyev əmr imzalayıb.

Əmrə əsasən, F.Nemətli Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru vəzifəsinə təyinat alıb.

***Murad İbrahimli***

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700



# Türkiyədə meymunçiçəyinə ilk yoluxma qeydə alındı

***Türkiyədə meymun çiçəyi xəstəliyinə ilk yoluxma faktı aşkar edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin səhiyyə naziri Fəxrəddin Qoca "Twitter" səhifəsində məlumat verib.

"Xəstələrimizdən birinə meymun çiçəyi diaqnozu qoyuldu. Xəstənin 37 yaşı var, immun çatışmazlığı var. O, təcrid olunub. Əlaqə qurulub, başqa insident qeydə alınmayıb. Məlum olduğu kimi, bu xəstəlik tənəffüs yolu ilə deyil, yaxın fiziki təmasda olur", - nazir bildirib.

***Ağarza Elçinoğlu***

# "Şagirdlərin süni nəticələrlə yox, addım-addım irəli getməsini düşünürük" - Nazir

***"Azərbaycan təhsillə əlaqəli olimpiada hərəkatı ilə bağlı işlərin böyük əksəriyyətini uğurla icra edir. Bu işdə bilik və bacarıqla yanaşı, vaxt da lazımdır. Nəticələrin yaxşı olması üçün sistemli iş qurulub. Bir çox liseylərimiz dünyada seçilən bilən nəticələr göstəriblər".***

"Unikal" xəbər verir ki, bu fikirləri təhsil naziri Emin Əmrullayev Respublika fənn olimpiada qaliblərinin mükafatlandırılma mərasimində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, beynəlxalq olimpiadada işlər pis getmir: "Şagirdlərin süni nəticələrlə yox, addım-addım irəli getməsini düşünürük. Artıq bu istiqamətdə nəticələr də var. Şagirdlərimizin yarışlarda 50 ölkə sırasına düşməsi yaxşı nəticə kimi qiymətləndirilmәlidir. Bir neçə ildir ki, "Təhsil haqqında" qanun edilən dəyişikliklə beynəlxalq olimpiadalarda qalib olanlar müsabiqədənkənar ali təhsil almaq hüququna malikdirlər. Təbii ki, həmin şəxslər çox vaxt təhsilini ölkədən kənarda davam etdirirlər. Çünki qalib şagirdə dünyanın aparıcı universitetlərində tam təqaüd verilir. Bu say Azərbaycandan elə də az deyil. Lakin həmin şagirdlərin Azərbaycanda qalması əsas prioritet sahələrdən biridir. Xaricdə təhsil proqramı yenidən aktivləşdirilib. Sovet dövründə olimpiadaya düşən şagird sayı çox az idi. Ancaq indi o mərhələyə gəlib çatmışıq ki, qaliblər ölkədə qalıb öz təhsillərini davam etdirə bilər".



# Koronavirusa yoluxanların sayı kəskin artdı

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 49 yeni yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

İndiyədək ümumilikdə 793 273 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 368 nəfər müalicə olunaraq sağalıb, 9 717 nəfər vəfat edib, aktiv xəstə sayı 188 nəfərdir.

Ölkədə son sutka ərzində 3 057, hazırkı dövrədək isə 6 964 085 test aparılıb.

# Bakıdan beynəlxalq ədalətsizliyə sərt təpki

***İyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransı işə başlayıb.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib. Dövlətimizin başçısı konfransda çıxış edib.

Prezident İlham Əliyev çıxış edərək bir sıra mühüm məqamlara toxunub: "Bu gün zənnimcə Qoşulmama Hərəkatının tarixində vacib bir tədbir keçirilir. Burada - Bakıda biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini yaradırıq. Həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım olan Azərbaycanın bu təşəbbüsünü dəstəklədiyinə görə Qoşulmama Hərəkatına üzv olan dövlətlərə minnətdarlığımı bildirirəm. Azərbaycan parlamentinin səkkiz il ərzində sabiq bir üzvü olaraq, sizin sabiq həmkarınız olaraq mən parlament diplomatiyasının və parlamentlərarası münasibətlərin necə əhəmiyyət kəsb etdiyini yaxşı bilirəm. Əminəm ki, parlament şəbəkəmiz təkcə ölkələrimiz arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda, dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaq.

Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra ikinci ən böyük beynəlxalq təsisatdır və əlbəttə ki, biz hamımız səsimizin dünya miqyasında eşidilməsini istəyirik. Parlament şəbəkəsi bizim təkcə irəli sürdüyümüz və dəstəyinizi qazandığımız yeganə təşəbbüs deyil. Digər vacib bir təşəbbüs gənclər şəbəkəsidir. Növbəti ay burada, Bakıda başqa önəmli bir tədbir, Qoşulmama Hərəkatının Gənclər Sammiti keçiriləcəkdir. Bunlar Qoşulmama Hərəkatının institusional inkişafı üçün atılmış addımlardır və hesab edirəm ki, bu istiqamətdə praktiki addımların atılması üçün vaxt yetişib. Azərbaycanın irəli sürdüyü və üzv dövlətlər tərəfindən dəstəklənmiş digər bir təşəbbüs Nyu-Yorkda Qoşulmama Hərəkatının Dəstək Ofisinin yaradılmasıdır. Hesab edirəm ki, indi institusional inkişaf istiqamətində daha çox addımların atılması üçün düzgün vaxtdır və bu da öz növbəsində bizə beynəlxalq arenada maraqlarımızı qorumağa və əlbəttə ki, ölkələrimiz arasında həmrəyliyin gücləndirilməsinə kömək edəcək".

Prezident bildirib ki, Azərbaycan həmişə regional mövzular və qlobal məsələlərlə bağlı öz mövqeyini nümayiş etdirirdi və əlbəttə ki, Qoşulmama Hərəkatının sədri olaraq biz ədalətsizliyə, beynəlxalq hüququnun pozulmasına, müxtəlif münaqişələrə qarşı sərgilənən selektiv yanaşmaya və ayrıseçkiliyə qarşı mübarizə aparmağa davam edəcək: "Biz, həmçinin Qoşulmama Hərəkatının üzv dövlətlərinin böyük dəstəyinin də şahidi olduq. Qeyd etdiyim kimi, Qoşulmama Hərəkatına sədrliyin verilməsi və sonra da onun uzadılması ilə bağlı yekdil qərar ölkələrin Azərbaycana olan münasibətini aydın nümayiş etdirirdi. Şahidi olduğumuz digər vacib bir həmrəylik əlaməti Ermənistan tərəfindən təqribən 30 illik işğaldan sonra torpaqlarımızın azad edilməsi zamanı ölkəmizin yaşadığı ən çətin dövrə təsadüf etdi. Biz öz torpağımızda savaşırdıq, biz ədaləti bərpa edirdik, beynəlxalq hüququ bərpa edirdik. Lakin əfsuslar olsun ki, bəzi ölkələr bizə qarşı kampaniyaya - qarayaxma, böhtan və şantaj kampaniyasına başladılar.

Təəssüflər olsun ki, bu sadəcə şifahi kampaniya və ya ictimai ittihamlar deyildi. Bəzi ölkələr bizim bu haqq işimizə BMT, onun Təhlükəsizlik Şurası səviyyəsinə çıxarmağa cəhd etdi. Lakin həmin vaxt Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan, Qoşulmama Hərəkatında təmsil olunan dostlarımız anti-Azərbaycan mahiyyətli bəyanatı blokladılar. Azərbaycana qarşı ittihamı blokladılar və bununla da ermənipərəst qlobal qüvvələrin Azərbaycana qarşı hücumuna mane oldular. Biz bu həmrəyliyə görə sizə minnətdarıq.

Bir daha qeyd etmək istəyirəm ki, biz ədaləti bərpa edirdik. Azərbaycan dünyada ən böyük ədalətsizliklə üzləşmiş ölkələrdən biri idi. Ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi etnik təmizləmə ilə nəticələndi. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Bizim tarixi və dini irsimiz erməni işğalçıları tərəfindən yer üzündən silinib. Bu gün azad olunmuş ərazilərə səfər edənlər bu barbarlığın və vandalizmin şahidi ola bilərlər. Məscidlərimizin təhqiri, mədəni və dini abidələrimizin dağıdılması - bunlar faktlardır və bunu heç kəs görməzdən gələ bilməz. Ermənipərəst qüvvələr nə qədər də bunu görməzdən gəlməyə çalışsalar da buna müvəffəq ola bilmirlər. Çünki artıq, minlərlə, bəlkə on minlərlə insan, o cümlədən xarici qonaqlar, siyasətçilər, parlament sədrləri və üzvləri, jurnalistlər, ekspertlər və sıravi insanlar azad edilmiş ərazilərə səfər ediblər.

Biz bu münaqişəyə son qoyduq, ədalət və beynəlxalq hüququ bərpa etdik. 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısındakı çıxışımda qeyd etmişdim ki, biz ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Biz bunları bərpa edə bilməməyin, başqalarından asılı olmağın nə olduğunu yaxşı bilirdik.



Biz uzun illər, təqribən 30 il ərzində bunu gözləyirdik. Gözləyirdik ki, beynəlxalq ictimaiyyət ədalətsizliyə və işğala son qoyulmasına yardım edəcək. Bu məqsədlə ATƏT 1992-ci ildə Minsk qrupunu təsis etdi və o, bu münaqişənin həll yolunu tapmalı idi. Yəni, işğala son qoyulmalı idi. Əksinə, Minsk qrupu bu münaqişənin əbədi olmasını istəyənlərin əlində alətə çevrildi".

Ölkə başçısı əlavə edib ki, bu gün Azərbaycanın münaqişəni həll etməsindən, işğala son qoymasından, özünün ərazi bütövlüyünü hərbi-siyasi yollarla bərpa etməsindən sonra Minsk qrupuna ehtiyac yoxdur: "Biz Minsk qrupuna artıq əlvida demişik. Təəssüflər olsun ki, Ermənistan və digərləri onu həyata qaytarmağa çalışır. Lakin bu, mümkünsüzdür. O, artıq ölüb. İşğaldan əziyyət çəkmiş ölkə kimi biz bunu açıq şəkildə bəyan edirik. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda, regionda mümkün sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir.

2020-ci il noyabrın 10-da 44 gün sürən Vətən müharibəsi nəticəsində Ermənistan kapitulyasiya etməyə və məğlubiyyətini etiraf etməyə məcbur oldu. Daha sonra döyüş meydanında azad edilməmiş digər rayonlardan çıxmağa məcbur edildi. Bunu etməyə bizə sadəcə 44 gün kifayət etdi. Ancaq biz bunu 30 ilə yaxın gözlədik. İşğal illəri dövründə, müxtəlif beynəlxalq tədbirlərdə çıxış edərkən mən Ermənistana qarşı sanksiyaların tətbiqinə çağırırdım. Deyirdim ki, bu problemin dinc həllinin yeganə yolu Ermənistana qarşı sanksiyaların tətbiqidir. O sanksiyalar ki, səmərəli olacaq və onların iqtisadiyyatına sarsıdıcı təsir göstərəcək. Əfsuslar olsun ki, heç bir sanksiya tətbiq edilmədi və əksinə, Ermənistan Azərbaycanla müqayisədə bəzi ermənipərəst siyasətçilərdən getdikcə daha çox dəstək alırdı.

Gördüyümüz kimi, Minsk qrupunun fəaliyyətinin yeganə məqsədi münaqişəni dondurmaq və torpaqlarımızı əbədi işğal altında saxlamaqdan ibarət idi. Biz həmin siyasətə son qoyduq, güc və siyasi müdriklik sayəsində torpaqlarımızı azad etdik.

Deyə bilərəm ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı vəziyyət təkcə regional deyil, qlobal məsələdir. Çünki bu, təkcə beynəlxalq hüququn təməl prinsiplərinin tam pozulması deyil, həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin kobud pozulması və onlara məhəl qoyulmaması halı idi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni qoşunlarının bizim ərazimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Sual olunur ki, niyə bu qətnamələr icra edilmədi? Buna cavab verə bilən yoxdur və ya cavab vermək istəmir. Növbəti sual ondan ibarətdir ki, niyə BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün içərisində icra olunur, bizə gəldikdə onlar 28 il ərzində kağız üzərində qalır? Əgər cəsur azərbaycanlı hərbçilər torpaqlarımızı azad etməsə idi həmin qətnamələr yəqin ki, daha 28 il ərzində kağız üzərində qalacaqdı.

Bu, BMT-nin və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsini gündəmə gətirir. Çünki qətnamələr icra edilmirsə, onları qəbul etməyin nə mənası var. Biz islahatların tərəfdarıyıq və hesab edirəm ki, bu, Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində müzakirə olunmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin siyasi üstünlük əsasında icra edilməsinə son qoyulmalıdır.

Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslər həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə, təsisatımızın institusional inkişafına və bəlkə də müəyyən mərhələdə onu təşkilata çevrilməsinə yönəlib. Bilirəm ki, Qoşulmama Hərəkatının tarixində bununla bağlı müzakirələr olub və bəlkə də bu müzakirələri yenidən başlamağın vaxtı çatıb. Çünki bu gün biz dünyada qlobal qütbləşmənin, müharibənin, münaqişənin, proqnozlaşdırıla bilinməyən vəziyyətin, ərzaq, enerji və humanitar böhranların şahidi oluruq. Hesab edirəm ki, Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək platforması deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycan olaraq biz bunu görmək arzusundayıq və ümid edirəm ki, bizim hörmətli qonaqlarımız, Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentlərinin nümayəndələri bu işə töhfə verəcək və əlbəttə ki, mən də Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları ilə məsləhətləşmələrimi davam etdirəcəm.

Əziz dostlar bizimlə olduğunuza görə sizə təşəkkür edirəm. Ənənəvi Azərbaycan qonaqpərvərliyini göstərmək üçün əlimizdən gələni edəcəyik. Ümid edirəm ki, bu konfrans təkcə çox məhsuldar deyil, həm də ünsiyyət və sıx təmasların qurulması baxımından da yaxşı fürsət olacaqdır. Nəticədə isə biz həmrəylik, qarşılıqlı dəstək və təsisatlarımızın gücləndirilməsində tərəqqinin şahidi olacağıq".

***İnformasiya şöbəsi***



# Dəniz nəqliyyatı işçiləri təltif edilib - SİYAHI

***Prezident İlham Əliyev "Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinin təltif edilməsi haqqında" sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncamla Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif ediblər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Bəndəliyev Azər Bulud oğlu
Əliyev Nəsib Mürsəl oğlu
Məmmədov Lətif Xoca oğlu
Məmmədov Paşa Zakir oğlu
Səfərov Balakişi Məmmədağa oğlu
Səfərov Niyaz Ağabala oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Elnur Oruc oğlu
Abdullayev Elşad İslam oğlu
Eyyubov Elçin Əbdülməcid oğlu
Əliyev Bəhman Mikayıl oğlu
Əliyev Hümbət Məcid oğlu
Əliyev Mədəd Abbas oğlu
Hüseynov Rəşad Kamil oğlu
İsrəfilov Oruc Qurban oğlu
Kərimov İntiqam Şahbaz oğlu
Məmmədov Qədir Qoca oğlu
Oruclu İlqar Absətdər oğlu
Səlimov Eldar Nuhbala oğlu

**"Gəmiçilik sahəsində xidmətlərə görə" medalı ilə**

Alıyev Mehbalı Alı oğlu
Aslanov Ramiz Xanbala oğlu
Dadaşov Yavər Məmməd oğlu
Əliyev Əbdüləli Əhədulla oğlu
Hüseynov İlqar Tofiq oğlu
Məmmədov Tahir Ziyat oğlu
Pənahalıyev Şəmil Feyruz oğlu
Süleymanov Rizvan Rzaxan oğlu.

Prezidentin digər sərəncamı ilə Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilib:

Qarayev Taleh Mürvət oğlu
Şəfaqətov Oktay Gülməmməd oğlu.

# Bu qanunun əhatə dairəsi genişləndirildi

***Prezident İlham Əliyev "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlara edilmiş dəyişiklikləri təsdiqləyib.***

"Unikal" xəbər verir ki, dəyişikliklərə əsasən, bundan sonra Azərbaycanda özəl tibb müəssisələrinin göstərdiyi tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində 500 manatdan artıq ödənişlər, ümumi məbləği 3 min manatdan artıq olan uduşlar və oyunlarda iştirakla bağlı olan ödənişləri (pul qoyuluşu) ilə bağlı ödənişlər, "Nağdsız hesablaşmalar haqqında" qanunu uyğun olaraq yalnız nağdsız qaydada həyata keçiriləcək.

## Azərbaycan-İran Birgə Komissiyasının 51-ci görüşü keçirildi

***Azərbaycan-İran Birgə Komissiyasının 51-ci görüşün Protokol layihəsinin müzakirəsi İranın Təbriz şəhərində keçirilib.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov "Unikal"a bildirib ki, Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan Respublikasının və İran İslam Respublikasının daimi fəaliyyət göstərən Birgə Komissiyasının 51-ci görüşün Protokol layihəsinin müzakirəsi İranın Təbriz şəhərində keçirilib.

Azərbaycan-İran Birgə Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda Səhmdar Cəmiyyətin şöbə müdiri Elçin Məmmədov və sektor müdiri Elxan Hüseyinov, Azərbaycan Ekologiya və Təbii Sərvətlər nazirliyinin və Naxçıvan MR-nın aidiyyəti təşkilatlarının nümayəndələri iştirak ediblər.

Görüşdə bir sıra məsələlər müzakirə edilmişdir. Belə ki, Araz su anbarının iş rejimi və iki ölkə arasında su bölgüsü müəyyənləşdirilmiş, Araz çayında su və enetgetika ehtiyatlarından birgə istifadə üzrə müvafiq bölgü cədvəlləri hazırlanmış və Protokol imzalanmışdır.

Qeyd edək ki, Azərbaycan-İran Birgə Komissiyasının 52-ci görüşün Protokol layihəsinin müzakirəsi gələn il Bakı şəhərində keçiriləcək.

## Anar Kərimov iranlı nazirlə görüşdü

***Anar Kərimov İran İslam Respublikasının mədəni irs, turizm və əl işləri sənayesi naziri Seyid İzzətulah Zərqami ilə görüşüb.***

Mədəniyyət Nazirliyindən "Unikal"a verilən məlumata görə, Anar Kərimov görüş zamanı iki dost ölkənin qədim tarixə malik münasibətlərinin təməli qarşılıqlı etimad üzərində qurulduğunu vurğulayıb. Həmçinin mədəni və humanitar sahədə əməkdaşlığın önəmindən danışıb.

Dəvət üçün nazirə təşəkkürünü bildirən Seyid İzzətulah Zərqami də öz növbəsində ölkələrimiz arasında tarixən mövcud olan və uğurla davam edən möhkəm dostluq münasibətlərində bu gün kütləvi informasiya vasitələrinin də böyük rolu olduğunu vurğulayıb.

Tərəflər həmçinin işğaldan azad olunmuş tarixi torpaqlarımızda dağıdılmış həm müsəlman, həm də xristian dininə aid məbədlərin eyni həssaslıqla bərpa olunduğunu bildirərək yüksək qiymətləndiriblər. Mədəniyyət paytaxtımız Şuşanın İslam dünyası üçün kəsb etdiyi yüksək dəyərdən danışıblar. Həmçinin qlobal problemlərdən sayılan islamofobiya ilə mübarizədə birgə əməkdaşlığın önəmi bildirilib.

Eləcə də Qarabağda davam edən yenidənqurma və bərpa işlərində İranın təcrübəsindən yararlanmağın vacibliyi vurğulanıb.

Xudafərin körpüsünün birgə bərpası məqsədilə Anlaşma Memorandumunun imzalanması barədə də fikir mübadiləsi aparılıb.

Görüş tərəfləri maraqlandıran bir sıra mövzuların müzakirəsi ilə davam edib.

# "Deputatların da xərcləri böyüyüb"

## Vahid Əhmədov: "Seçicilərlə işləyirik, onları qəbul edirik, müəyyən problemlər olur, onları həll etmək lazımdır"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədov "Unikal"a müsahibə verib. Deputat ərzaq qiymətlərinin bahalaşmasından, əməkhaqqı və pensiyalardan, millət vəkillərinin maaşlarının artırılmasından və başqa məsələlərdən danışıb.***

***-Vahid müəllim, cəmiyyəti maraqlandıran əsas məsələlərdən biri, ölkədə müşahidə edilən bahalaşmadır. Deputat həmkarlarınız çıxışı zamanı qeyd ediblər ki, qiymət artımının bir səbəbi də inhisarçılıqla bağlıdır. Bununla bağlı hansı addımlar atılmalıdır?***

-Dünyada gedən proseslər, xüsusilə Rusiya-Ukrayna müharibəsi qiymət artımlarına öz təsirini göstərir. Biz xaricdən xeyli məhsul idxal edirik. Dünyada ərzaq qıtlığı yaranır ki, bu da Azərbaycana öz təsirini göstərir. İnanmıram ki, ölkəmizdə ərzaqla bağlı problem olsun. Bazarda müəyyən monopolistlər var ki, bu vəziyyətdən istifadə edərək qiymətləri qaldırırlar. Həmçinin, xaricdən idxal etdiyimiz məhsullar da daxili bazara təsir göstərir. Bundan başqa kifayət qədər süni qiymət artımı var. İşbazların bu vəziyyətdən istifadə edərək qiymətləri qaldırması ciddi problemdir. Antiinflyasiya tədbirləri hazırlanıb. Bunun nə qədər effektli olacağını indidən demək çətindir. Həmişə məsələ qaldırırıq ki, Rəqabət Məcəlləsi qəbul olunsun. Məcəllənin qəbul olunması ilə bağlı Baş nazir göstəriş verib və İqtisadiyyat Nazirliyi onu hazırlayıb. Həmin sənəd bütün nazirliklərlə razılaşdırıldıqdan sonra hökumətə qaytarılıb. Yəqin ki, gələn sessiyada Rəqabət Məcəlləsi parlamentə daxil olar və qəbul olunar. Məcəllənin qəbul edilməsi qiymətlərin müəyyən qədər stabilləşməsinə öz təsirini göstərəcək.

***-Bahalaşma daha çox mövsümi meyvələrin qiymətində müşahidə olunur. Əvvəlki illərlə müqayisədə fərq böyükdür. Bu nə ilə bağlıdır?***

-Mövsümi meyvələr, eləcə də tərəvəzlər daha ucuz olmalı idi, təəssüf ki, ucuzlaşma yoxdur. Özüm də bazarlıq edəndə qiymətləri görürəm. Qiymətlər kifayət qədər yüksəkdir. Bu məhsullar bir mənbədən alınır. Görünür göstəriş belədir ki, qiymətlər hələki bu səviyyədə saxlanılsın. İndiyə qədər məhsulun qiyməti artandan sonra ucuzlaşmasını görməmişəm.

***-Bu günlərdə parlamentdə müharibə veteranlarına verilən müavinətlərin artırılması təklif olundu. Bundan əvvəl də bu barədə məsələ qaldırılıb. Müharibə veteranlarına verilən müavinətlərin artırılması gözlənilirmi?***

-Bu barədə komitə iclasında da məsələ qaldırdım. Şəhid ailələri, qazilər və müharibə veteranlarına diqqəti artırmalıyıq. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bu işlə ciddi məşğuldur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən də müəyyən işlər görülür. Amma bu sahədə müəyyən nöqsanlarımız var. Elə etmək lazımdır ki, həmin şəxslərdən şikayətlər almayaq. Müharibə veteranlarına verilən müavinət azdır. Bu məbləğin artırılmasına ehtiyac var. Bir məsələni də nəzərə almaq lazımdır ki, hazırda Qarabağda böyük quruculuq işləri gedir. Bu işlərin görülməsinə böyük vəsait xərclənir. Bununla yanaşı, müharibə veteranlarına verilən müavinətin artırılması məsələsinə baxmağa ehtiyac var.

***-Bu ilin büdcəsinə edilən dəyişiklikdə diqqətçəkən məqamlardan biri də seçkilərin keçirilməsi və statistika tədbirləri üçün xərclərin artırılmasıdır. Ölkədə referendum keçiriləcəyi, növbədənkənar parlament seçkilərinin təşkil ediləcəyi kimi fikirlər səsləndirilir. Bu il hansısa seçkilərin keçirilməsi gözlənilirmi?***

-Hazırda Milli Məclisdə 7 deputat yeri boşdur. Ola bilər ki, həmin yerlərə seçkilər keçirilsin. Əgər seçkilər keçiriləcəksə, bununla bağlı qanun layihəsi olacaq. Həmin qanunu təsdiq edəndən sonra dəqiq nə isə demək olar. Həmin 7 yerə seçkilərin keçirilməsinə ehtiyac var. Ümumilikdə idarəetmə strukturunda dəyişiklik edilməlidir. Düşünürəm ki, deputatların sayı artırılmalıdır. Bu say 175 və ya 200 ola bilər. Bu artıq hesablamalardan asılıdır. Bundan başqa belə söhbətlər gedir ki, majoritar seçki sistemi ilə yanaşı proporsional seçki də əlavə edilsin. Bu müzakirələr cəmiyyətdə, müəyyən partiyalar arasında aparılır. Amma bununla bağlı parlamentə sənəd gəlməyib ki, müzakirə edək.



***-Ötən iclasların birində deputat həmkarlarınız tərəfindən AZAL-ın biletlərinin qiymətinin baha olması parlamentin iclasında müzakirə olundu. Bundan əvvəl də bu məsələ ilə bağlı çox danışılıb. Problemin aradan qaldırılması üçün hansı işlər görülməlidir?***

-Qiymət problemi var. Hökumət bu problemi həll etməlidir. Belə ki, AZAL-la bağlı bütün məhsulların hamısı dövlət büdcəsi hesabına alınır. Qiymətlərin yüksək olması da faktdır. Yəqin ki, bu məsələyə baxılacaq və öz həllini tapacaq. Bununla bağlı hökumətin qərarı lazımdır.

***-Quru sərhədlərinin açılmaması nə ilə bağlıdır?***

-Sərhədlərin açılması çox vacibdir. Bunu pandemiya ilə əlaqələndirirlərsə, sərhəddə yoxlamaları bərpa etməklə insanları buraxmaq lazımdır. Bu məsələ müzakirə obyektidir. Yəqin ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən bu məsələyə mövqe bildirilər.

***-Qiymətlərin artımı fonunda maaş və pensiyaların yenidən artırılmasına baxıla bilərmi?***

-Maaş və pensiyaların yenidən artırılmasına ehtiyac var. Maaş, pensiya və müavinətlər əhalimiz üçün vacib məsələlərdən biridir. Məlum olduğu kimi, bu ilin büdcəsində artımlar daha çox işğaldan azad olunmuş ərazilərdə görülən quruculuq işlərinə ayrılıb. Bununla yanaşı ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün də vəsait ayrılıb. Bunlar da ciddi məsələlərdir. Ərzaq qıtlığının olmaması üçün də işlər görülür.

***-Son günlər ən çox müzakirə olunan məsələlərdən biri də deputatların maaşının artırılmasıdır...***

-Deputatların maaşında böyük artım yoxdur. Millət vəkillərinə əlavələr verilirdi. Onların hamısı ləğv olundu və maaşın üzərinə əlavə edilib. Müəyyən qədər artım var, bu elə də böyük artım deyil. Deputatların da xərcləri böyüyüb. Seçicilərlə işləyirik, onları qəbul edirik. Müəyyən problemlər olur, onları həll etmək lazımdır.

***Anar Kəlbiyev***

# Əbülfəs Qarayevin özündən arxayınlığının sirri...

## Sabiq nazirin ailə üzvləri borclarını niyə vaxtında ödəmir?



***Bu günlərdə məlum oldu ki, sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin ailə üzvlərinə məxsus olan şirkətlər dövlət büdcəsinə olan vergi öhdəliyini vaxtında ödəməyiblər.***

KİV-in yazdıqlarına görə, rəsmi məlumatlardan aydın olur ki, sabiq mədəniyyət nazirinin qızı Suad Qarayevanın (Maleki) adının baş hərflərindən götürülən "SQ-Future" MMC-nin (VÖEN - 1700495641) dövlət büdcəsinə 5 min 297 manat 83 qəpik vergi borcu var.

"SQ-Future" MMC-nin qeydiyyatda olduğu Müslüm Maqomayev küçəsi, ev 22 ünvanında sabiq nazirin həyat yoldaşı Lalə Tofiq qızı Kazımovanın (Azərbaycan SSR xalq artisti, rejissor Tofiq Kazımovun qızı) direktor olduğu "Yol+İlk Elmi-Populyar Dərgi Redaksiyası" MMC-də (VÖEN - 1700567661) dövlət qeydiyyatına alınıb. Bu şirkətin də hazırda dövlət büdcəsinə 2 min 28 manat 51 qəpik borcu var.

Bunlardan başqa sabiq nazirin özünün və ailə üzvlərinin adının baş hərflərindən (Qarayev, Abülfəs, Lalə (həyat yoldaşı) və Suad (qızı) götürülən "GALS" MMC-nin də (VÖEN - 1701354961 ) 512 manat 51 qəpik vergi borcu var.

Məlumat üçün bildirək ki, "GALS" MMC 2012-ci ildə Səbail rayonu, Yusif Məmmədəliyev küçəsi, ev 19 ünvanında təsis olunub. Bir il sonra - 2013-cü ildə Moskva şəhəri, Tatarskaya küçəsi 7 ünvanında Əbülfəs Qarayevin qızı Suad Qarayeva (Maleki) tərəfindən "GALS" adlı şirkət də təsis olunub.

Beləliklə, sabiq nazirin ailə üzvlərinin dövlət büdcəsinə olan vergi öhdəliklərini vaxtında yerinə yetirmədikləri göz önündədir, maraq doğuran isə bunun səbəbidir. Qarayevlərin pulu yoxdur? Bunu düşünmək belə çox gülməli olardı.

Elə isə hansı səbəbdən danışa bilərik.

Xatırlayaq: Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Mədəniyyət nazirinin o vaxtkı müavini Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin həmin dövrdəki rəisi Sultanov Zakir İmran oğlu isə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edildi.

Sözügedən anti-korrupsiya əməliyyatından sonra həmin vaxt Mədəniyyət naziri vəzifəsində çalışan Əbülfəs Qarayevin də istintaqa cəlb ediləcəyi yönündə iddialar səslənir, mülahizələr irəli sürülürdü. Hətta bir ara yerli media xəbər vermişdi ki, rəhbərlik etdiyi nazirlikdə irimiqyaslı korrupsiya və digər qanunazidd əməllər aşkarlandığı üçün kreslosunu itirən eks-nazir istintaq altındadır. Bildirilirdi ki, Ə.Qarayev ötən müddət ərzində bir neçə dəfə istintaqın suallarını cavablandırıb. Hətta o da deyilirdi ki, sabiq nazir Azərbaycanı tərk etmək istəyərkən sərhəddən qaytarılıb. Belə ki, Türkiyəyə getmək istəyən sabiq nazirə ölkədən çıxışına məhdudiyyət qoyulduğu deyilib. İddialara görə, Qarayev ona qoyulmuş "stop"un götürülməsi üçün istintaq orqanına müraciət edib. Eks-nazir Türkiyəyə həkim müayinəsinə getmək istədiyini və geri qayıtmaq niyyətinin olduğunu bildirib.

Əslində bütün bu iddiaların ortaya çıxmasında nə təsadüfi, nə də təəccüblü heç nə yoxdur. Reallıq burasındadır ki, keçmiş Mədəniyyət nazirinin cinayət məsuliyyətinə cəlb ediləcəyi cəmiyyətin əksər kəsiminin proqnozlaşdırdığı məsələ idi. Xüsusilə son zamanlar eks məmurlara qarşı anti-korrupsiya əməliyyatları bunun mümkünlüyünü gündəmə gətirirdi. İstintaqın sonunda sabiq nazirin özünün də cinayət məsuliyyətinə cəlb edilməsi sürpriz olmazdı. Əlbəttə, bu ehtimalın özünü doğruldub-doğrultmayacağını zaman göstərəcəkdi. Lakin bu da danılmaz faktıdır ki, əgər həmin iddia gerçəkləşərsə nə cəmiyyətdə, nə də mətbuatda təəccüblə qarşılanmayacaqdı. Çünki hər kəs bilir ki, Mədəniyyət Nazirliyində yeyintilər dərin kök salıb, bu barədə təkzibolunmaz faktlar mövcuddur. Həmin faktların bir ucu isə məhz Əbülfəs müəllimə gedib çıxır. Nazirlikdə ondan icazəsiz və xəbərsiz hətta quş uçmadığını hər kəs bilirdi...

Lakin keçmiş nazirlə bağlı proqnozlar özünü doğrultmadı. O, yalnız işini itirməklə vəziyyətdən çıxa bildi.

Və gələk əsas məqama: görünür, Qarayev və onun ailə üzvləri belə hesab edirlər ki, nəhəng korrupsiya cinayətlərindən hər hansı hüquqi məsuliyyətə cəlb olunmadan canını qurtarmaq mümkündürsə, onda dövlət büdcəsi qarşısında vergi öhdəliklərini vaxtında yerinə yetirməmək də mümkündür. Bir sözlə, cəzasızlıq yüngül desək, məsuliyyətsizliyi artırır və arxayınlıq yaradır. Dünən cəza almamısansa, deməli, sabah da cəzasız qala bilərsən. Vəssalam, şüttamam...

***Sənan Mirzə***



# Məktəbli forması ilə bağlı təzyiq var? - RƏSMİ AÇIQLAMA

***"Məktəbli forması ilə bağlı hər hansı təzyiqdən söhbət gedə bilməz".***

"Unikal" xəbər verir ki, bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva jurnalistlərə açıqlamasında deyib.

BŞTİ müdiri xatırladıb ki, məktəbli formaları ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərarı var:

"Bu da məktəbli formasının rəngi, forması və şagirdlərin sağlamlığına xidmət edən qərardır. Qəbul edilən qərar və qanunlara hər kəs riayət etməlidir. Təhsil müəssisələrindəki pedaqoji şuranın qərarı ilə məktəbli formaları üçün üç rəng seçimi edilə bilər. Bu mövzuda başqa təzyiqlər ola bilməz. Valideynlər məktəbin qərarına hörmət edərək rəng seçiminə uyğun olaraq öz övladlarını geyimlə təmin etməlidirlər. Bu, bizim şagirdlərin gələcək sağlam inkişafına müsbət təsir edən amildir. Hesab edirəm ki, sentyabr ayından heç bir təzyiq olmadan, əksinə, sevinərək bu istiqamətdə yaxşı mənzərəni görərək fəaliyyətə başlayacağıq".

Forma seçən məktəblərin olub-olmamasına gəlincə, M.Vəliyeva əlavə edib ki, bu, hər bir məktəb üzrə pedaqoji şuranın qəbul edəcəyi qərardır:

"Ona görə yekun nəsə demək mümkün deyil. Ola bilsin ki, avqust ayında keçiriləcək şurada bu barədə qərarlar qəbul edilsin. Valideynlərə maarifləndirici işlər aparılacaq və seçim işlərində köməklik ediləcək".

# Qadını avtobusdan atan sürücü saxlanılmayıb - Açıqlama

***Sumqayıtda avtobusda yaşanan insidentə görə sürücünün həbs edilməsi ilə bağlı məlumatlar yayılıb.***

Daxili İşlər Nazirliyinin (DİN) şöbə rəisi Elşad Hacıyev bildirib ki, məlumat həqiqətə uyğun deyil: "Sürücü saxlanılmayıb. Bu barədə məlumatlar əsassızdır. Müvafiq ekspertiza təyin edilib, araşdırmalar davam etdirilir. Araşdırma nəticələrindən asılı olaraq məsələyə hüquqi qiymət veriləcək".

Qeyd edək ki, hadisə bir neçə gün öncə Sumqayıt Şəhər İcra Hakimiyyətinə məxsus olan şəhərdaxili avtobuslardan birində yaşanıb. Mübahisə zamanı qadın sərnişin sürücünü təhqir edib. Daha sonra əlindəki çanta ilə onun başına vurub. Bundan sonra sürücü qadını təpiklə itələyərək avtobusdan atıb. Hadisə zamanı qadın qapıdan yola yıxılıb.

İlkin məlumata görə, hadisə sərnişinin dayanacaqdan kənarda saxlama tələbinə görə baş verib. Qadın yüngül xəsarət alıb. Hazırda vəziyyəti yaxşıdır.

Faktla bağlı Sumqayıt Şəhər Polis İdarəsinin 4-cü Polis Bölməsində təhqiqat araşdırmaları aparılır.

# Hamilə qadın təcili yardım maşınında öldü

***34-35 həftəlik hamilə olan gənc qadın yolda ölüb.***

"Unikal" lent.az-a istinadən xəbər verir ki, iyunun 29-u saat 23 radələrində 1991-ci il təvəllüdlü Aysel Nağıyeva təcili yardım maşınında dünyasını dəyişib. Belə ki, o, "Tərtər Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin təcili tibbi yardım avtomobili ilə Bakıya gətirilərkən qəflətən halı pisləşib. Bunun nəticəsində Qazax-Bakı yolunun Kürdəmir rayonundan keçən hissəsində avtomobildə ölüb.

Faktla bağlı araşdırma aparılır.



## “Ağıllı kənd”də beynəlxalq konfrans keçirildi

***İyunun 29-da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının və Qarabağ Dirçəliş Fondunun dəstəyi ilə Zəngilan rayonunun Ağalı kəndində “Su ehtiyatlarının davamlı idarə edilməsində tərəfdaşlığın və fəaliyyətin təşviq edilməsi” mövzusunda beynəlxalq konfrans keçirilib.***

”Unikal” xəbər verir ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpus və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin, ekspertlərin iştirakı ilə hibrid formatda keçirilən tədbirdə su ehtiyatları sahəsində davamlı inkişafın məqsəd və hədəflərinə nail olmaq üçün səylərin səfərbər edilməsi, bu məsələnin qlobal və regional həlli məqsədilə beynəlxalq səviyyədə dialoqun yaradılması, transsərhəd kontekstdə tərəfdaşlığın qurulması kimi aktual istiqamətlər müzakirə mövzusu olub.

Konfransda çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev işğaldan azad olunmuş ərazilərdə ekosistemin və infrastrukturun, hidrometeoroloji müşahidə sistemlərinin bərpası, su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə su mənbələrinin qiymətləndirilməsi və digər tədbirlər barədə məlumat verib. “Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi”nin su ilə bağlı məqsəd və hədəflərinin həyata keçirilməsində BMT və digər beynəlxalq, regional təşkilatların, özəl sektorun, vətəndaş cəmiyyətinin səylərinin birləşdirilməsinin vacibliyi qeyd olunub. O da bilidirlib ki, Azərbaycanın şirin su ehtiyatlarının 70 faizindən çoxu ölkə hüdudlarından kənarda formalaşır. Bütün bunlara baxmayaraq, Azərbaycan, eyni zamanda, transsərhəd su mənbələrinin qeyri-düzgün idarə olunması və çirkləndirilməsi problemi ilə üzləşir.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva deyib ki, dünyada təxminən 2 milyarddan çox insanın təhlükəsiz su ehtiyatlarına çıxışı yoxdur. O, Azərbaycanda iqlim dəyişikliyi və su ehtiyatlarının əksəriyyətinin mənbəyini qonşu ölkələrdən götürməsi səbəbindən su resurslarının çatışmazlığı probleminin mürəkkəbləşdiyini və onun həllində regional əməkdaşlığın vacib rol oynayacağını qeyd edib.

Konfransda çıxış edən “Azərsu” ASC-nin sədr müavini Köçərli Həsənov su ehtiyatlarından səmərəli istifadənin müasir dövrün ən aktual məsələlərindən biri olduğunu xatırladaraq işğaldan azad olunmuş ərazilərin içməli su təchizatı ilə bağlı məlumat verib. Qeyd olunub ki, işğal dövründə bu ərazilərdə içməli su təchizatı və kanalizasiya sistemləri dağıdılmış, işlək vəziyyətdə olan hidrotexniki qurğular və paylayıcı şəbəkələr yararsız hala salınmışdır. “Torpaqlarımız işğaldan azad olunduqdan sonra “Azərsu” ASC tərəfindən ilkin olaraq yaşayış məntəqələrini su ilə təmin edən su mənbələrinin və magistral kəmərlərin dağıdılmış hissələri bərpa edilərək yaşayış olan ərazilər su ilə təmin edilib. İşğaldan azad olunmuş yaşayış məntəqələrində xidmət səviyyəsinin yaxşılaşdırılması məqsədi ilə Şuşa, Zəngilan, Kəlbəcər şəhərləri və Hadrut qəsəbəsi ərazisində fasiləsiz fəaliyyət göstərən xidmət sahələri təşkil edilib. İşğaldan azad olunmuş şəhər və rayon mərkəzlərində “Ağıllı su” layihələri icra olunacaq”.

Konfransın sonunda iyunun 30-da Estoniyada keçiriləcək Su Konvensiyası ilə bağlı tədbirə töhfə olacaq nəticə sənədi qəbul edilib. Konfrans çərçivəsində iştirakçılar “Ağıllı kənd”də yaradılan infrastrukturla tanış olub, Həkəri çayına qızılxallı forel balıqlarının buraxılması mərasimində iştirak ediblər.

# Bakının yaşıllıq dərdinin iki "dərman"ı...

## Azərbaycan paytaxtı kimlərin hansı əməlləri sayəsində dünyanın ən yaşıl şəhərlərinin siyahısından kənarda qalır?

***Rəsmi açıqlamaya görə, Azərbaycanda adambaşına düşən yaşıllığın miqdarı 0.2 hektardır. Dünyada isə bu rəqəm ortalama olaraq 0.48 hektardır. Buradan belə məlum olur ki, ölkəmizdə adambaşına düşən yaşıllıq göstəricisi dünya ortalamasından 2.4 dəfə azdır!***

Bugünlərdə isə paytaxt Bakıdakı yaşıllıq sahələri ilə bağlı maraqlı rəqəm açıqlanıb. Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi nümayəndəsinin sözlərinə görə, indi paytaxtın 213 min 500 hektar olan inzibati ərazisinin 11 min 528 hektarı yaşıllıq sahələri və açıq məkanlardır. Bu o deməkdir ki, yaşıllıq sahələri Bakının cəmi 5.43 faizini tutur.

Kiçik bir haşiyə: ötən il İsveçin “Husqvarna Group” və Niderlandın “Overstory” şirkətləri kompüter görüntüsü və peyk çəkilişlərinin dərin öyrənmə üsullarını tətbiq etməklə dünya şəhərlərində yaşıl sahələrin payı (o cümlədən meşə-ağaclar və çəmən-qazon, şəhər bitki örtüyünün əhali sayına nisbəti və s. meyarlara görə yaşıllaşma indeksini (“Husqvarna Urban Green Space İndex” - HUGSİ) müəyyənləşdirmişdilər.

HUGSİ-nin saytında (www.hugsi.green) təqdim olunan siyahıya görə, 2021-ci ilin əvvəlinə dünyanın ən yaşıl şəhəri ABŞ-ın Şimali Karolina ştatının Şarlott şəhəridir. Bu şəhərin yaşıllıq səviyyəsi 81,12 bəndlə (maksimum - 100) qiymətləndirilmişdi. Yaşıllıqlar şəhərin ümumi ərazisinin 68%-ni əhatə edir.

İkinci pillədə 79,28 bəndlə Cənubi Afrikanın Durban şəhəri tutmuşdu. Burada ümumi yaşıllıq şəhərin 59%-ni təşkil edir. Üçüncü yerdə isə Litvanın paytaxtı Vilnüs şəhəri 77,96 bənd, yaşıllıq sahələri onun 62%-ni əhatə edir.

İlk onluqda sonrakı yerlərdə Dortmund (Almaniya), Krakov (Polşa), Ştutqart (Almaniya), Ostin (ABŞ), Vürtsburq (Almaniya), Sürix (İsveçrə) və Heydelberq (Almaniya) var.

Estoniyanın paytaxtı Tallin 56-cı, Rusiyanın paytaxtı Moskva 69-cu, Ukraynanın paytaxtı Kiyev 100-cü, Latviyanın paytaxtı Riqa 102-ci yeri tutmuşdular. Keçmiş sovet məkanından başqa şəhərlər siyahıda yer almamışdı. Bu o deməkdir ki, Bakı ”dünyanın ən yaşıl şəhərləri” siyahılarından kənardadır. Əlbəttə, təəssüfedici məqamdır. Ancaq nəzərə alanda ki, yaşıllıq sahələri Bakının cəmi 5.43 faizini tutur, onda buna təəccüblənmək üçün əsasımız qalmır. Düzdür, Bakının baş plan layihəsində həmin göstəricinin 2040-cı ilədək 10 faizə yüksəldilməsi planlaşdırılıb. Lakin bu planlaşdırılma fonunda paytaxtın müxtəlif rayonlarından hələ də ağacların kəsilməsi, yaşıllıqların məhv edilməsinə dair xəbərlər gəlməkdədir. Üstəlik, bu qanunsuz addımlar müəyyən vəzifəli şəxslərin gözü qarşısında (üstəlik, böyük ehtimalla məlumatı olaraq!) atılır. Kimlərinsə öz biznes maraqları naminə, hansısa ticarət obyekti, yaxud restoran tikdirməsi üçün ağaclar, kollar məhv edilməyə davam edəcəksə, onda Bakının 20240-ci ilədək 10 faizinin yaşıllaşacağına ürəkdən necə əmin olasan?

Açıqlanan rəsmi göstəricilərdən həm də bu məlum olur ki, ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə ilə bağlı investisiyaların həcmi azalıb. Əgər 2019-cu ildə Azərbaycanda bu məqsədlər üçün 310 milyon manat yatırım edilmişdisə, 2020-ci ildə bu rəqəm cəmi 170 milyon manata geriləyib. 2021-ci ildə isə belə yatırımlar daha da azalaraq 71 milyon manat olub. İnvestisiyaların azalması hansı səbəblərlə bağlıdır? Bu suala konkret cavab vermək çətindir. Lakin bir məqamı vurğulamaqda fayda var: ayrılan vəsaitlərin məbləği ilə yanaşı, şəffaf, təyinatı üzrə xərclənməsi də önəmlidir. Hətta ötən il üçün müəyyənləşdirilmiş vəsaitlə də ölkə üzrə ətraf mühitin mühafizəsini təşkil və təbii resurslardan səmərəli istifadə ilə bağlı da kifayət qədər iş görmək mümkündür. Yetər ki, sözügedən vəsaitin müəyyən bir qismi kimlər üçünsə asan qazanc mənbəyinə çevrilməsin.

Gəlin xatırlayaq: Hesablama Palatası Yaşıllaşdırma Təsərrüfatı Birliyinə dövlət büdcəsindən ayrılmış vəsaitlərin icra vəziyyətini yoxlamış, ortaya xeyli nöqsan çıxarmışdı. Məsələn, məlum olmuşdu ki, Bakı şəhərinin yaşıllıqlarına xidmət göstərilməsi üçün “Abadlaşdırma xidmətləri haqqının ödənilməsi” paraqrafı üzrə dövlət büdcəsi layihəsinə təqdim olunan və icra prosesində Birlik tərəfindən qulluq edilən sahə göstəriciləri arasında əhəmiyyətli fərqlər olub, müvafiq illər üzrə “abadlaşdırma xidmətləri haqqının ödənilməsi” paraqrafı üzrə yaşıllıqlara qulluq xərcləri üzrə təqdim olunmuş proqnozlaşmada Birlik tərəfindən yaşıllıqlara xidmət xərclərinin



tərkibində norma ilə nəzərdə tutulmayan xərclər nəzərdə tutularaq proqnozlaşdırılıb. Birliyin təsdiq edilmiş ştat cədvəllərində yaşıllıq sahəsi işçilərinin əmək haqları qüvvədə olan normativ-hüquqi aktların tələblərinə uyğun müəyyənləşdirilməmiş, aqronom vəzifəsinə uyğun olmayan ixtisaslarda (müəllim, mühəndis, iqtisadçı və s.) audit dövründən əvvəl 13 nəfər şəxs işə qəbul edilib və onlara əmək haqqı ödənilib, yaşıllıq sahəsi işçilərinin icbari sığorta haqqı ödənilərkən işdən çıxan işçilər üzrə sığorta haqqı azaldılmayıb. Birlik qanunvericiliyin tələblərinə riayət etməyərək, balansında olan yaşıllıq sahəsinin, habelə həmin sahədə ağac və kolların, çəmənlik və gül sahəsinin, çoxillik əkmələrin inventarizasiyası aparılmamış, alınması rəsmiləşdirilmiş əkin materiallarının, o cümlədən ağac və kolların, hazır çimin, gül şitillərinin yaşıllıq sahələrində əkilməsi sahə üzrə (rayon üzrə) aktla sənədləşdirsə də, ünvan və say barədə məlumatlar əks olunmayıb və s. və i.a.

Yalnız bir audit nətcəsində ortaya çıxan bu qədər nöqsan fonunda Bakının yaşıllıq dərdinin, həqiqətən də, dərman tapacağına inanmaq mümkündürmü?

Əgər biz paytaxtımızın adını dünyanın ən yaşıl şəhərləri sırasında görmək, onun təbii gözəllikləri ilə göz oxşamasını istəyiriksə, xüsusilə iki məsələ həllini tapmalıdır: birincisi, Bakıda ağaclara, kollara qənim kəsilənlər kimliyindən, vəzifəsindən asılı olmayaraq ən ağır şəkildə cəzalandırılmalı, belələrinin yalnız cərimələrlə vəziyyətdən çıxmasına imkan verilməməli, daha sərt cəza tədbirləri işə salınmalıdır. İkincisi, yaşıllıqların salınması və mühafizəsinə ayrılan dövlət vəsaitləri üzərində nəzarət gücləndirilməli, bu vəsaitlərin şəffaf, təyinatı üzrə xərclənməsi tam təmin edilməli, həmin büdcə pullarına yan gözlə baxanlara hüquq müstəvisində heç bir güzəşt olunmamalıdır...

***Toğrul Əliyev***

# Məmurların ilginc tender işləkləri...

## Çoxmilyonluq dövlət satınalmaları ilə bağlı narahatlıqlar nə vaxt aradan qaldırılacaq?

***Budur, ölkə mətbuatı Azərbaycanda daha bir ilginc tender barədə yazır, - məlum olur ki, "MSDIS Holding"in dövlət qarşısında külli miqdarda vergi borcu olmasına baxmayaraq 20 günə 13 tender müqaviləsi imzalayıb!***

Hazırda şirkətin vergi borcu 375 240.74 manat təşkil edir.

Elə isə şirkət 2022-ci ilin geridə qalan 5 ayı ərzində 16 tender müqaviləsini necə imzalayıb? (Özü də həmin müqavilələrin ümumi dəyəri nə az, nə çox, düz 1 809 277, 46 manat olub!) Axı vergi borcu olan şirkətlərin tenderdə iştirakı "Dövlət Satınalmaları haqqında" Qanunun 6.2.5-ci maddəsinin tələblərinə görə mümkün deyil. Adıçəkilən şirkət isə təkcə cari ilin may ayında 13 tender müqaviləsinə qol qoyub! Bunlardan 3-ü üç gün aralığı ilə (17-20 may) baş tutub.

Qeyd edək ki, iki ildir fəaliyyət göstərən "MSDIS Holding"in baş direktoru Nağıyev Mirfəyyaz Oktay oğludur. Holdinq inşaat, istehsalat və yanacaqdoldurma sektorları üzrə ixtisaslaşıb. Hazırda holdingin tərkibində 5 sahə fəaliyyət göstərir. Bunlar "MS Sement", "MS Kabel" və "MS Oil""MS Asfalt" zavodu, "MS Laminat" və "MS Karyer" sahələridir.

Göründüyü kimi, cəmiyyətin, özəlliklə medianın və iqtisadçı ekspertlərin çoxsaylı çağırışlarına rəğmən Azərbaycanda dövlət satınalmaları ilə bağlı qanunvericiliyin bütün tələblərinin tam təmin edilməsi sarıdan problemlər qalmaqdadır. Bəli, qüvvədə olan qanunvericiliyə görə, Azərbaycanda büdcə vəsaitlərinin xərclənməsi tenderlər vasitəsi ilə həyata keçirilir, lakin...

Lakin uzun illərdən bəri bu tenderlərin şəffaflığı, obyektivliyi ətrafında müzakirələr səngimək bilmir ki, bilmir!

Hətta bu qədər müzakirələrdən sonra belə, nə ictimaiyyətin qınağı, nə iqtisadçı ekspertlərin tənqidləri, medianın sözügedən mövzudakı ifşaedici materialları problemin aradan qaldırılmasına gətirib çıxarmayıb. Hələ də bir sıra dövlət satınalmaları, nəhəng investisiya layihələri obyektivliyi şübhə altında olan tenderlər vasitəsilə, ya da ümumiyyətlə, tendersiz-filansız kimlər arasındasa bölüşdürülür.



Problemin miqyası elə bir həddə çatıb ki, məsələyə ölkə başçısı səviyyəsində reaksiya verilib. Prezident çıxışlarının birində bildirib ki, həbs edilmiş icra başçıları tender prosedurlarını kobudcasına pozurdular: "Yəni, dövlət xətti ilə aparılan layihələrin, dövlət alışlarının icrası ilə əlaqədar tenderlərdə adətən bir neçə icra başçısına, ya da ki, onun müavininə yaxın olan şirkətlər qalib gəlirdilər. Nə üçün? Çünki burada da rüşvətxorluq və mənimsəmə halları kütləvi xarakter alırdı və bu da dövlət büdcəsinə böyük ziyandır"...

Təəssüf ki, dövlət satınalmalarındakı qaranlıq məqamlar hələ də davam edir; halbuki ölkədə korrupsiyanın kökünün biryolluq kəsilməsinə həm də dövlət satınalmalarında obyektivliyi, şəffaflığı tam təmin eləməkdən başlamaq zəruridir.

Gizlətməyə ehtiyac yoxdur ki, Azərbaycanda bəzi məmurların sayəsində faktiki olaraq "tender korrupsiyası" formalaşıb. Bu birilərinə büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi, "dədə malı" kimi baxmasının nişanəsidir. Onlar üçün büdcə pullarının bircə təyinatı var: talançılıq! Nəyin bahasına olur olsun, həmin pulları havaya sovurmaq, öz ciblərinə yönəltmək, nəticədə isə bunun fərqli fəndlərini fikirləşib tapırlar. Həmin fəndlərin bir çoxu illərdir barəsində danışılan müəmmalı, şübhəli tenderlər vasitəsi ilə həyata keçirilir. Bu günədək həbs olunan icra başçılarının, ayrı-ayrı nazirliklərin rəhbər şəxslərinin cinayət dosyelərindən çıxan nəticə budur.

Acınacaqlısı odur ki, bu proses davam edir: hələ də vergi borcu olanlar tender qalibi olurlar, bir sıra şirkətlər cəmi bir neçə həftə içində milyonlarla manatlıq çoxsaylı tender udur, 5 manatlıq nizamnamə kapitalı olan şirkətlər bir neçə milyon manatlıq dövlət satınalmaları müsabiqəsinin qalibinə çevrilir, hansısa şirkət dünən yaradılmasına baxmayaraq icrasına böyük təcrübənin tələb olunduğu layihələri qazanırlar. Bu siyahını bəs deyincə uzatmaq olar, lakin gərək görmürük. Onsuz da tenderlərlə bağlı problemlərin çeşidləri ən xırda detalınadək hər kəsə bəllidir...

Belədə bizə yalnız bunu demək qalır: bir halda ki, bəziləri hələ də tenderlərlə bağlı qanunsuz əməlləri davam etdirirlər, deməli, onda yeni məmur həbsləri də qaçılmazdır. Bizdən söyləmək, gerisini qoy dövlət satınalmalarını korrupsiya predmetinə çevirən vəzifəlilər düşünsün!

***Murad İbrahimli***




# DYP onlara qarşı nəzarət gücləndirilir

***Avtomobillə normadan artıq yük daşıyan fiziki və hüquqi şəxslərə qarşı nəzarət tədbirləri gücləndirilir.***

Bu barədə "Unikal"a DİN-in Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib.

Məlumata görə, təyinatından asılı olmayaraq istənilən yükün müəyyən edilmiş kütlə hədlərini aşmamaq şərtilə daşınması barədə dəfələrlə edilmiş xəbərdarlığa, bu sahədə çalışan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi istiqamətində görülən tədbirlərə baxmayaraq, müşahidələr göstərir ki, bəzi sürücülər tərəfindən hələ də analoji qayda pozuntularına yol verilir:

"Qanunvericilyə zidd olan bu kimi halların qeydə alınması, xüsusilə yay mövsümündə normadan artıq yük daşıyan avtomobillərin asfalt örtüklü yolları deformasiyaya uğradaraq yararsız hala salması ciddi narahatlıq hissi doğurmaqla yanaşı, həm də daha kəsərli tədbirlərin görülməsini tələb edir.

Odur ki, belə halların qarşısının alınması məqsədilə, DYP-nin stasionar postlarında nəzarət tədbirləri gücləndirilmiş, sözügedən qayda pozuntularına yol vermiş ayrı-ayrı sürücülər haqda inzibati tənbeh tədbirləri görülüb".

DİN-in Baş DYP İdarəsi bir daha sürücülərin, eləcə də yüklənməni həyata keçirən vəzifəli və hüquqi şəxslərin nəzərinə çatdırır ki, mövcud qanunvericiliyin tələblərinə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən edilmiş yük parametrlərini aşma hallarının aşkarlanacağı təqdirdə həmin avtomobilin hərəkəti qadağan edilməklə onu idarə edən fiziki şəxslər altı yüz manat məbləğində, icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərini aşmaqla yüklənməsinə yol vermiş vəzifəli şəxslər min dörd yüz manatdan min yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər isə dörd min manatdan beş min manatadək məbləğdə cərimə ediləcəklər.

# Solovyov növbəti dəfə Azərbaycandan üzr istədi

***Rusiyalı jurnalist və teleaparıcı Vladimir Solovyov separatçı David Babayanı proqramına dəvət etdiyi üçün Azərbaycandan üzr istəyib.***

"Unikal" xarici KİV- istinadən xəbər verir ki, bu barədə Solovyov "Solovğev Live" proqramının səhər buraxılışında söhbət açıb.

O, separatçı Babayanı efirə dəvət etməklə siyasi səhvə yol verdiyini etiraf edib:

"Böyük siyasi səhvə yol verdim. Sözü yalnız bir tərəfə verməyim mənim səhvim idi. Bu, mənim səhvimdir və üzr istəyirəm, sözü Azərbaycan tərəfinə verməyə hazıram".

Bununla yanaşı, Solovyov daha sonradan Azərbaycandan növbəti dəfə üzr istəyib.

# Sumqayıtda 18 yaşlı oğlan özünü asdı

***Sumqayıt şəhərində intihar hadisəsi baş verib.***

"Unikal"ın məlumatına görə, hadisə şəhərin "Xəzər bağları" yaşayış massivində qeydə alınıb.

Belə ki, 2004-cü il təvəllüdlü Cəfərzadə Əli Məlik oğlu özünü asaraq həyatına son qoyub.

***Gülayə Mecid***

# Rəşad Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyəti İsraildə

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyəti İsraildə səfərdədir.***

"Unikal" xəbər verir ki, səfər çərçivəsində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti ilə İsrailin tanınmış "Technion" Universiteti arasında müqavilə imzalanıb. Müqaviləyə əsasən fəaliyyətə başlayacaq Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi növbəti 3 il ərzində 1000-dən çox peşəkar mütəxəssisin hazırlanmasını həyata keçirəcək.

Proqram çərçivəsində tədris Bakıda "Technion" Universitetinin professor-müəllim heyəti tərəfindən aparılacaq. Bu yaxınlarda proqrama qəbulun elan olunması nəzərdə tutulur.

Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin əsas üstünlüklərindən biri kibertəhlükəsizlik üzrə mütəxəssislərlə yanaşı, yerli təlimçilərin hazırlanmasıdır. Mərkəzdə təlimçilərin yetişdirilməsi sayəsində gələcəkdə ölkəmizdə kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması geniş vüsət alacaq və bu istiqamətdə olan çatışmazlıqlar tamamilə aradan qaldırılacaq.

"Technion" Universitetinin qabaqcıl təhsil təcrübəsi və imkanlarının Azərbaycana gətirilməsi kibertəhlükəsizlik üzrə milli insan kapitalının formalaşmasına önəmli töhfə verəcək. Mərkəzdə tədris ingilis dilində həyata keçirilməklə 18 yaşdan yuxarı Azərbaycan vətəndaşları üçün əlçatan olacaq. Məzunlara "Technion" Universitetinin sertifikatı təqdim olunacaq.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev yeni açılacaq Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi ilə bağlı bildirib: "Bu gün "Technion" Universiteti ilə birgə ölkəmiz üçün vacib sahələrdən biri olan kibertəhlükəsizlik üzrə əməkdaşlığın bünövrəsini qoyduq. Ali məktəbin metodikası əsasında təşkil olunmuş proqram üzrə təhsil alacaq tələbələr əmək bazarına rəqabətli mütəxəssislər kimi hazırlanacaq. Çox məmnunuq ki, dünyanın ən qabaqcıl təhsil müəssisələri və bilik mərkəzlərindən biri olan "Technion" Universiteti ilə tərəfdaşlıq quraraq kibertəhlükəsizlik sahəsi üzrə beynəlxalq bilik və təcrübəni ölkəyə gətiririk!"

"Technion" Universitetinin prezidenti, professor Uri Sivan sözügedən əməkdaşlığın qurulmasından çox məmnun olduğunu və gələcəkdə onun daha da genişləndirilməsinə ümid etdiyini bildirib. "Təsis etdiyimiz yeni Mərkəz Azərbaycanın informasiya təhlükəsizliyini dəstəkləyən vacib bir layihədir və hazırlanan mütəxəssislər nəinki Azərbaycanda, eləcə də regionda sahənin inkişafına töhfə verəcəklər".

# Baş prokuror İmişlidə vətəndaşların problemləri ilə maraqlanacaq

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev iyulun 5-i, saat 10:00-da İmişli rayon prokurorluğunun inzibati binasında İmişli, Saatlı, Sabirabad və Cəbrayıl rayon sakinlərinin qəbulunu keçirəcək.***

Baş Prokurorluğun Mətbuat Xidmətindən "Unikal"a verilən xəbərə görə, vətəndaşların qəbulla bağlı qeydiyyatı və İmişli rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Gənclər və İdman Nazirliyinin keçmiş rəhbərliyi ilə bağlı yeni sensasion iddialar

## Sabiq müavin İsmayıl İsmayılovun zamanından qalan federasiyaların çoxu niyə ləğv edilir?

***Yola salmaq üzrə olduğumuz həftə Gənclər və İdman Nazirliyinin növbəti Kollegiya iclası keçirildi. İclasda kollegiyanın qərarına əsasən, daha bir neçə idman federasiyasının ("Həvəskar Universal Döyüş Federasiyası" İB, "Qarabağ-Əlil Döyüşçülər Futbol Federasiyası" İB, "Azərbaycan Peşəkar Boks Federasiyası" İB) fəaliyyətinə xitam verildi, yəni onların federasiya statusu dayandırıldı.***

Qeyd edək ki, bir neçə aydır nazirliyin nəzdində fəaliyyət göstərən xüsusi komissiyanın təqdimatına əsasən, Kollegiya qərarı ilə bu günədək statusu təsdiqlənmiş federasiyaların sayı 26-ya çatıb. Ümumilikdə, 25 federakio-2020 Olimpiya oyunlarında iştirakla bağlı, eləcə də müvafiq müraciətlər əsasında federasiyalara ayrılmış vəsaitlər üzərində inzibatçılığın, demək olar, tətbiq edilmədiyi ortaya çıxıb. O da məlum olub ki, vəsaitlərin istifadəsi ilə bağlı hesabatlılıq da təmin olunmayıb. Belə ki, bağlanmış müqavilələr çərçivəsində federasiyalar tərəfindən təsdiqedici və əsaslandırıcı sənədlər bəzi hallarda ümumiyyətlə təqdim edilməyib, bir sıra hallarda isə düzgün tərtib edilməyib, bəzi hallarda isə təqdim edilmiş sənədlər əsaslı olmayıb. Qeyd edilənlər, eyni zamanda Nazirliyin debitor borclarının da məbləğinin artımına təsir göstərib. İdman ictimaiyyətində sözügedən məsələ - federasiyaların maliyyələşdirilməsi! - çoxdan rasiyalarının fəaliyyətini kurasiya edirdi. İndi isə həm Hesablama Palatasının yoxlaması bu istiqamətdə ciddi nöqsanlara yol verildiyini ortaya çıxarır və belə məlum olur ki, ayrılan dövlət vəsaitləri heç də düzgün xərclənməyib, həm də nazirlikdə rəhbər dəyişikliyindən sonra 26 federasiyanın ləğvi bu ictimai birliklərin əksər hallarda kağız üzərində mövcudluğunu, onların indiyədək əksər hallarda fərqli maraqlar naminə qorunub-saxlandığını düşünməyə əsas verir.

Onu da deyək ki, ləğv edilən idman federasiyalarının bir çoxunun kimlər üçün isə pul silmə, yaxud asan qazanc mənbəyi olmasını bir neçə məqam üzərindən də rahatlıqla müəyyənləşdirmək olar. İnternet üzə



siyanın isə statusu dayandırılıb. Federasiyaların statusuna baxılması prosesi davam edir. Bu isə o deməkdir ki, ləğv edilən federasiyaların sayı artacaq. Əslində bunda təəccüblü heç nə yoxdur. Əldə etdiyimiz məlumata görə, federasiya statusu dayandırılan qurumlar tamamilə fəaliyyətsiz olub, bir sözlə, adları var, ancaq özləri yox imiş, daha çox kağız üzərində, formal "fəaliyyət" göstərirmişlər. Həmin federasiyaların çoxuna isə bu fəaliyyətsizlikləri müqabilində hər il müəyyən məbləğdə vəsait ayrılırmış. Yəni faktiki olaraq pul silinirmiş.

Bunu Hesablama Palatasının təzəlikcə açıqladığı hesabat da dolayısı ilə təsdiqləyirdi. Qurumun Gənclər və İdman Nazirliyi və tabeliyində olan qurumlar (seçmə qaydada) tərəfindən dövlət vəsaitinin və digər dövlət əmlakının idarə olunmasına və istifadəsinə dair auditinin nəticələrinə görə, audit zamanı məlum nazirlik tərəfindən xarici ölkələrdə təlim-məşq toplantıları və müxtəlif yarışlarda, həmçinin Tomüzakirə mövzusu idi. Hələ mərhum nazir Azad Rəhimovun zamanında tez-tez belə iddialar səsləndirilirdi ki, Gənclər və İdman Nazirliyində kimlərsə "adı var, özü yox" federasiyaların "yağışdan sonrakı göbələk" kimi artımında maraqlıdır. Məqsəd də ölkə idmanının inkişafında, demək olar, heç bir ciddi rolu olmayan belə federasiyalar vasitəsilə pulsilmə əməliyyatları həyata keçirməkdir.

Ötən saylarımızın birində də yazmışdıq ki, Gənclər və İdman Nazirliyi tərəfindən xarici ölkələrdə təlim-məşq toplantıları və müxtəlif yarışlarda, həmçinin Tokio-2020 Olimpiya oyunlarında iştirakla bağlı, eləcə də müvafiq müraciətlər əsasında federasiyalara ayrılmış vəsaitlər üzərində inzibatçılığın təmin edilməməsi sabiq nazir müavini İsmayıl İsmayılovu çətin vəziyyətdə qoyur. Çünki o, həmin postu tutarkən məhz xarici ölkələrdə təlim-məşq toplantıları və müxtəlif yarışlara, o cümlədən, Olimpiya oyunlarına hazırlıq prosesini, eləcə də, idman federindən kiçik bir araşdırma aparmaq kifayətdir ki:

1) belə federasiyaların hətta adi saytlarının belə olmadığını görək;

2) onların indiyədək hər hansı düzəməlli turnir keçirmədiyini, yaxud hansısa diqqətəlayiq idman uğuru qazanmadığını aydınlaşdıraq;

3) ləğv edilən bir çox idman federasiyaları barədə virtual axtarış sistemində yerli-dibli hər hansı məlumata rast gəlinmir və s. və i.a.

Bunu nəzərə aldıqda Gənclər və İdman Nazirliyinin yeni rəhbərliyinin indiyədək 26 federasiyanın fəaliyyətini dayandırması anlaşılandır,təqdir olunandır. Eyni zamanda prosesin davamlı olacağı barədə anons da diqqətəlayiqdir. Sadəcə, yaxşı olardı ki, bu günədək belə federasiyaların fəaliyyətsizliyinə keçmiş rəhbərliyin hansı məntiq, maraq və prinsiplərlə göz yumduğu da araşdırma predmetinə çevrilməlidir...

**Sənan Mirzə**

## 6.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionlarda sosial-iqtisadi layihələrə güzəştli kreditlər ayrılır

### Nazirlik: "Regionlarda turizmin inkişafını nəzərdə tutan layihələrin dəstəklənməsi Sahibkarlığın İnkişafı Fondunun 2022-ci ildə güzəştli kreditlərin verilməsi üzrə prioritet istiqamətlərinə daxildir"




***Azərbaycanda regionlarımızın sosial-iqtisadi inkişafı prioritet sahələrdəndir. Bunun üçün dövlət tərəfindən güzəştli kreditlərin ayrılması, layihələrin maliyyələşdirilməsi işləri hər il davam etdirilir.***

Bəs görəsən bu il regionların sosial-iqtisadi inkişafı üçün hansı işlər görüləcək?

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsinin 9.1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanıb. Dövlət Proqramı Bakı şəhəri və qəsəbələri, Abşeron iqtisadi rayonu (Abşeron və Xızı rayonları, Sumqayıt şəhəri), Aran iqtisadi rayonu (Yevlax, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan və Mingəçevir şəhərləri), Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları), Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri), Quba-Xaçmaz iqtisadi rayonu (Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonları), Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları), Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli və Şərur rayonları), Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları), Yuxarı Qarabağ iqtisadi rayonu (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları və Xankəndi şəhəri), Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları) regionlarını əhatə edir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı da hazırlanıb. Bu sənəddə regionların sosial-iqtisadi inkişafı prioritet təşkil edir. Belə ki, regionlarda özəl investisiya fəallığının artırılması və investisiyaların cəlb edilməsi istiqamətində təşviq və dəstək tədbirlərinin davam etdirilməsi, iri fermer təsərrüfatlarında tətbiq olunan mütərəqqi texnologiyaların və aqrotexniki qaydaların digər kənd təsərrüfatı məhsulları istehsalçıları arasında təbliği və istifadəsinin təşviqi ilə bağlı tədbirlərin davam etdirilməsi plana daxildir. Həmçinin regionlarımızda kənd təsərrüfatı üzrə informasiya-məsləhət xidmətlərinin göstərilməsi sisteminin inkişaf etdirilməsi və məsləhətçilər şəbəkəsinin genişləndirilməsi, ölkədə ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı və kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə bağlı sahibkarlar arasında maarifləndirici tədbirlərin davam etdirilməsi nəzərdə tutulub. Kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışının asanlaşdırılması ilə bağlı təkliflərin hazırlanması və tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşma nəzərə alınmaqla rayonlaşmanın müəyyən edilməsinin və məsləhət bürosunun fəaliyyət göstərməsinin təşkili istiqamətində işlərin görülməsi də görüləcək işlər sırasındadır. Regionların sosial-iqtisadi inkişaf planında yerli istehsalçıların tədarük-təchizat sisteminə qoşulması üçün kənd, rayon, region tipli tədarük infrastrukturunun yaradılması, regionlarda baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə uyğun müasir kiçik və orta tutumlu ət kəsimi məntəqələrinin yaradılmasının təşviq edilməsi və dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbarların, o cümlədən soyuducu anbarların tikintisinin dəstəklənməsi də var. Eyni zamanda xalçaçılığın inkişafının dəstəklənməsi, o cümlədən xammal təminatının və xalça istehsalı sahələrinin yaradılması ilə bağlı tədbirlərin davam etdirilməsi, bölgələrdə süd toplama məntəqələrinin, gön-dəri xammalının tədarük məntəqələrinin, dərman bitkilərinin tədarükü və emalı müəssisəsinin yaradılmasının dəstəklənməsi, eləcə də regionlarda heyvan xəstəliklərinin qarşısının alınması üçün baytarlıq-sanitariya qurğularının tikintisi həyata keçiriləcək.

Nazirlikdən verilən məlumata görə, Tədbirlər Planında "Gənclərin və qadınların regional inkişafda rolunun artırılması" xüsusi vurğulanıb. Planda göstərilib ki, regionlarda fəaliyyət göstərən Gənclər Evlərində gənclər üçün karyeranın planlaşdırılması, peşə seçiminə dair istiqamətləndirilməsi və sahibkarlıq fəaliyyətinin əsaslarına dair təlim kursları həyata keçirilməlidir. Bundan əlavə regionlarda yaşayan gənclərin İKT sahəsində biliklərinin artırılması məqsədilə təlimlər təşkil olunur. Regionlarda peşə təhsili müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və tikintisi istiqamətində işlərin davam etdirilməsi o cümlədən- aqrar yönümlü Peşə təhsili məktəbinin tikintisi həyata keçirilir. Regionların sosial-iqtisadi inkişaf prioritetlərini nəzərə alaraq müasir tələblərə cavab verən işsiz və işaxtaran vətəndaşlar üçün Regional Peşə Tədrisi Mərkəzləri şəbəkəsinin genişləndirilməsi, mövcud olanların maddi-texniki bazasının gücləndirilməsi, səriştə əsaslı modul və distant təlim imkanlarının artırılması nəzərdə tutulub.

Regionlarda turizmin inkişafı da unudulmayıb. Regionlarda müxtəlif turizm növlərinin, o cümlədən kənd yaşıl turizmi, etno-turizm, eko-turizm, qış turizmi, trans-sərhəd turizmi və s. inkişafı istiqamətində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulub. Kənd yaşıl turizmi fəaliyyəti ilə məşğul olan sahibkarlara kreditlərin və qrantların verilməsi istiqamətində müvafiq tədbirlər görüləcək. Regionlarda turizm xidmətlərinin təkmilləşdirilməsi sahəsində tədbirlər görüləcək. Bölgələrdə həssas sosial qrupların turizm xidmətlərinə çıxışının təkmilləşdirilməsi ilə bağlı tədbirlər nəzərdə tutulub. Nazirlikdən onu da bildirdilər ki, turizmin inkişafını nəzərdə tutan layihələrin dəstəklənməsi Sahibkarlığın İnkişafı Fondunun 2022-ci ildə güzəştli kreditlərin verilməsi üzrə prioritet istiqamətlərinə daxildir. Fond tərəfindən indiyədək 234 turizm layihəsinin maliyyələşdirilməsi məqsədilə 60,3 milyon manat güzəştli kredit vəsaiti ayrılıb və bu layihələrin reallaşdırılması 5 mindən artıq yeni iş yerinin açılması imkanı yaradır. 2022-ci ilin ötən dövrü ərzində isə turizmin inkişafı ilə bağlı 5 layihəyə 1,3 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 39 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Turizm layihələrinin maliyyələşdirilməsi məqsədilə Fonda daxil olan müraciətlərin əksəriyyəti kənd turizminin inkişafı, otel, mehmanxana və qonaq evinin yaradılması və ya genişləndirilməsi, sanatoriya və müalicə sağlamlıq mərkəzinin təşkili ilə bağlı olub.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Əlillik dərəcəsi yeni meyarlarla müəyyənləşəcək

***İyulun 1-dən əlillik sahəsində yeni meyarların tətbiqinə başlanacaq.***

"Unikal" xəbər verir ki, yeni meyarlar aşağıdakılardır:

- Əlillik artıq 3 dərəcə üzrə deyil, orqanizmin funksiyalarının 31-100 faiz aralığında məhdudlaşma göstəricisi əsasında müəyyən olunacaq.
- 31 faizdən sonra göstərici 5 faiz - 5 faiz aralığında artacaq.
- Qiymətləndirmə 7 kateqoriya üzrə aparılacaq: özünəqulluq, sərbəst hərəkətetmə, istiqamətseçmə, ünsiyyət, davranışına nəzarətetmə, öyrənmə və əmək fəaliyyəti.
- Əlillik təyinatına əsas verən meyarlar 4 dəfədən çox artırılır.
- Bu vaxta qədər müddətsiz əlillik təyin edilmiş şəxslər yeni meyarlarla bağlı təkrar müayinəyə çağırılmayacaq.
- Bu vaxta qədər müddətli əlillik verilmiş şəxslərin isə yalnız həmin müddət bitəndən sonra yeni meyarlarla əlilliyinin qiymətləndirilməsi aparılacaq.
- Sağalmaz xəstəlikləri olan uşaqlar üçün əlillik artıq 18 yaşa qədər deyil, ömürlük təyin ediləcək.
- İndiyədək iki və daha çox diaqnoz olduqda, yalnız biri üzrə əlillik təyin olunurdu. Bundan sonra onlardan yüksək faizi olanın üzərinə 10 faiz əlavə olunmaqla təyinat aparılacaq.
- Bu zaman daha üstün sosial təminat hüququ verən əlillik səbəbi müəyyən ediləcək. Məsələn, şəxsdə həm müharibə ilə əlaqədar, həm də ümumi səbəbdən əlillik mövcud olanda, o zaman ona müharibə ilə əlaqədar əlillik müəyyən olunacaq ki, sosial təminatı daha yüksək olsun.
- Meyarlarda məhdudlaşmanın ən yüksək həddi olan 100% pozulma - hər hansı bir orqanın funksiyasının 100% pozulması deməkdir. Məsələn, görmə qabiliyyətinin 100 faiz itirilməsi.

## “Kənddən Şəhərə” həftəsonu yarmarkaları keçiriləcək

***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2-3 iyul tarixlərində Bakı və Abşeronda “Kənddən Şəhərə” həftəsonu yarmarkaları təşkil olunacaq.***

”Unikal” xəbər verir ki, yarmarkalarda yerli kənd təsərrüfatı və qida məhsulları birbaşa fermerlər tərəfindən satışa çıxarılacaq. “Kənddən Şəhərə” həftəsonu yarmarkalarının təşkilində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə doğun şəkildə təmin etməkdir.

Fermerlər yarmarkalarda tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstərilərək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara qədər daşınacaq.

Budəfəki “Kənddən Şəhərə” həftəsonu yarmarkalarında ümumilikdə 40-dan artıq regiondan 100-ə yaxın fermer iştirak edəcək. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlarsatışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

“Kənddən şəhərə” həftəsonu yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının çıxışı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

## İlham və Fərizə Sevgililər Günündə ziyarət olundu

***30 iyun Azərbaycanda milli Sevgililər Günü kimi qeyd olunur.***

“Unikal”ın məlumatına görə, bu günün tarixi 1990-cı il 20 yanvar faciəsi zamanı şəhid olan İlham və buna dözməyib özünə qəsd edən həyat yoldaşı Fərizənin toy günü ilə əlaqədardır.

Qeyd edək ki, 30 iyunun Azərbaycanda sevgililər günü kimi qeyd olunmasının təşəbbüskarı “Xural” Media Qrupunun rəhbəri Əvəz Zeynallıdır.

Bu gün Ə.Zeynallı və bir qrup fəal İlham və Fərizənin məzarını ziyarət ediblər.



Bu günlərdə Azərmətbuatyayımı ASC-nin 3 saylı regional şöbəsinin rəisi Mansur Mehdiyevin 50 yaşı tamam olub. İndiyə qədər Mansur müəllim müxtəlif məsul vəzifələrdə çalışıb. Hər zaman dövlətə, xalqa xidmət yolunu tutub. 50 illik həyatının mühüm hissəsini ictimai-siyasi, mətbuat və digər mühüm sahələrə həsr edib.

Doğum günü münasibəti ilə dostları, iş yoldaşları, sinif yoldaşları və bütün yaxınları onu təbrik edirlər.

# Bu şəxslər daha tez pensiyaya çıxacaq - DETALLAR

***”Prezident İlham Əliyev “Əmək pensiyaları haqqında” qanunda dəyişiklikləri təsdiq edib. Qanuna edilən dəyişiklik pensiyaya əlçatanlığın daha da artırılması baxımdan vacib hesab olunur”.***

”Unikal” xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, dəyişikliyə görə, beş və daha çox uşaq dünyaya gətirən analar ilə yanaşı uşaqları övladlığa və (və ya) qəyyumluğa götürüb onları səkkiz yaşınadək tərbiyə etmiş və böyütmüş qadınlar da 5 il daha tez pensiyaya çıxa biləcəklər.

”Digər tərəfdən, ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı və ya sağlamlıq imkanları məhdud uşağını növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən atalar da tez pensiyaya çıxmaq hüququ əldə edəcəklər. Bu o deməkdir ki, yeni dəyişikliklər ilə daha tez pensiyaya çıxma kateqoriyası genişləndirilir. Digər dəyişikliklərə əsasən, iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyas almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə ən azı 12 il 6 ay çalışmış kişilər və azı 10 il çalışmış qadınlar da 5 il daha tez pensiyaya çıxmaq hüququ qazancaqlar. Pensiyaya tez çıxmaq hüququ digər bir sıra şəxslər ilə müqayisədə də dəyişir. Belə ki, hipovizqanizm xəstəliyinə tutulan şəxslərin (liliputların) və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy şəxslərin azı 5 il sığorta stajı olduqda 20 il daha tez pensiyaya çıxa biləcəklər.



Eyni zamanda, mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar vəzifələrdə çalışanların həmin işlər üzrə azı 25 il, səhhətinə görə uçuş işindən azad olunmuş şəxsərin isə həmin işlər üzrə azı 20 il sığorta stajı olduqda pensiyaya çıxma yaşı həddi 15 il azaldılacaq”.

Deputat qeyd edib ki, vacib dəyişikliklərdən biri də ailə üzvlərinin birinin dünyasının dəyişməsinə görə pensiyaların hesablanması qaydası ilə bağlıdır:

”Ailə üzvlərindən biri, ailə başçısının qulluq stajına görə əlavə təyin olunmuş yoldaşı və övladları istisna olmaqla, öz seçimi ilə digər növ əmək pensiyasını, yaxud ailə başçısını itirməyə görə müavinət istisna olmaqla sosial müavinəti aldıqda ona ailə başçısının itirilməsinə görə düşən əmək pensiyasının məbləği bu hüququ olan digər ailə üzvləri arasında bölüşdürülməklə onların əmək pensiyasının məbləği yenidən hesablanır. Bu isə həmin şəxslərin əmək pensiyalarının yenidən hesablanması yolu ilə artmasına səbəb olacaq. Eyni zamanda, vəfat etmiş ailə başçısının vəfat etdiyi tarixə əmək pensiyasının yenidən hesablanmasında istifadə olunmamış pensiya kapitalı ailə başçısını itirməyə görə əmək pensiyasının təyinatı zamanı nəzərə alınacaq.

Bu dəyişikliyin mahiyyəti bundan ibarətdir ki, əvvəlki qanunvericiliyə əsasən, yaşa, yaxud əlilliyə görə pensiya alan şəxs ailə başçısını itirdikdə və ailə başçısını itirməyə görə də pensiya hüququ yarandıqda öz pensiyasını seçirsə, ona hesablanan pensiya məbləği digər ailə üzvləri arasında bölüşdürülmür. Təsdiq edilən dəyişikliklərə əsasən, ailə başçısını itirməyə görə pensiya hüququ olan şəxs digər növ əmək pensiyasını və ya sosial müavinəti seçdikdə, ona hesablanan pensiya məbləği belə hüququ olan digər ailə üzvləri arasında bölüşdürüləcək və bu da onların gəlirlərinin artmasına səbəb olacaq”.

Milli Məclisin üzvü əlavə edib ki, dəyişikliklərə əsasən, pensiyaçısının əmək pensiyasının bir növündən başqa növünə keçmək hüququ var:

”Bu zaman, əmək pensiyasının bir növündən başqa növünə keçirilmə bu barədə ərizənin və tələb olunan sənədlərin təqdim edildiyi tarixdən, şəhid ailəsi üzvləri üçün isə ailə başçısına şəhid statusunun verildiyi tarixdən hesablanmaqla aparılır. Bu o deməkdir ki, yaşa görə əmək pensiyası növündən əlilliyə görə əmək pensiyası növünə keçmək istsina olmaqla digər bütün növ əmək pensiyalarına keçmək mümkündür”.

# FHN bu mehmanxananın fəaliyyətini dayandırdı

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətlərinə uyğun olaraq, ölkədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir.***

Nazirlikdən ”Unikal”a verilən məlumata görə, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Binəqədi rayonu, Əhməd Rəcəbli küçəsi, ev 11/33 ünvanında yerləşən “Qrand” mehmanxanasında yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, həmin nöqsanların insan həyatı və sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib. Belə ki:

- birinci və ikinci mərtəbələrdə təxliyə yolları yanar materiallarla üzlənib;
- mətbəx sahəsində daxili qaz boruları yivli birləşmələrlə istismar olunur və mətbəxdə qaz sızmasının xəbərdar edilməsi üçün avtomatik xəbərverici qurğu quraşdırılmayıb;
- obyektin ərazisində qeyri-standart qaz su qızdırıcısından istifadə olunur;
- obyektdə avtomatik yanğınxəbərverici siqnalizasiya qurğusu quraşdırılmayıb;
- elektrik paylayıcı lövhəsinin, qazanxana və mətbəx sahələrinin elektrik qurğuları “Elektrik qurğularının quraşdırılması Qaydası”nın tələblərinə uyğun quraşdırılmayıb;



- mətbəx sahəsinin tüstü bacası yağ qalıqlarından təmizlənməyib;
- obyekt ilkin yanğınsöndürmə vasitələri və odsöndürən balonlarla tam təmin olunmayıb;
- obyektin çardaq sahəsinin, dəhlizin və qonaq otaqlarının üzləndiyi taxta konstruksiyalar odadavamlı məhlulla hopdurulmayıb;

Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın qısa müddətdə genişlənərək faciəni qaçılmaz edəcək.

Qeyd olunanları nəzərə alaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının pozulması səbəbindən baş verə biləcək yanğın hadisələrindən insanların həyatının və sağlamlığının, dövlətin əmlak maraqlarının, milli sərvətin, ətraf mühitin, bütün mülkiyyət növlərinin qorunması məqsədilə, qanunvericiliyin tələblərinə uyğun olaraq, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Binəqədi rayonu, Əhməd Rəcəbli küçəsi, ev 11/33 ünvanında yerləşən “Qrand” mehmanxanasında işlərin və xidmətlərin göstərilməsinin məhdudlaşdırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib.

# Suvarmanın mütəşəkkil aparılması üçün tədbirlər görülür

***Cəlilabadda 34 ədəd hidrotexniki qurğu təmir olunub. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, 11805 hektar əkin sahəsinə xidmət edən Cəlilabad Suvarma Sistemləri idarəsi sahələrin suvarılması üçün mənbə olaraq Cənubi Muğan kanalı və 3 ədəd su anbarından istifadə edir. Bunlar İncəçay su anbarı, Cəfərxanlı su anbarı və Göytəpə su anbarıdır. Ötən illə müqayisədə hər üç anbarda kifayət qədər su toplanıb. Anbarların əsas əhəmiyyəti ondan ibarətdir ki, suvarmanın qızğın vaxtında suya tələbat artarsa anbarların suyundan istifadə edilir. Ümumilikdə anbarlar vasitəsilə 1700 hektar ərazi suvarıla bilir. Bundan başqa idarənin balansında 12 ədəd nasos stansiya da fəaliyyət göstərir. Bunlardan, 10-u dizel yanacağı ilə, 2-i isə elektriklə işləyir.***

Suvarmanın mütəşəkkil aparılması üçün Cəlilabad Suvarma Sistemləri İdarəsi tərəfindən torpaq məcralı kanallarda lildən təmizləmə işləri daimi olaraq davam edir. Ötən il əsaslı təmir planına uyğun olaraq mexaniki kanalın 500 metr hissəsində təmir işləri həyata keçirilib. Bundan başqa 34 ədəd hidrotexniki qurğu və 4 ədəd nasos stansiya təmir olunub. İdarənin balansında olan 106 ədəd subartezian quyusundan isə əhalinin suvarma və içməli suya olan tələbatı üçün istifadə olunur. Bu il əsaslı təmir planında Muğan torpaq kanalının 1500 metrində betonlama işinin davamı nəzərdə tutulub ki, bununla da kanalın xidməti ərazisində olan torpaq sahələrinin suvarılmasında su itkisi minimuma endiriləcək.

Qeyd edək ki, Cəlilabad Suvarma Sistemləri İdarəsinin suvarılan 11805 hektar əkin sahəsindən 7100 hektarı taxıl, 12000 hektarından çoxu üzüm, 635 hektarı yem bitkisi, 100 hektarı pambıq, 240 hektarı həyətyanı sahə, 2515 hektarı meyvə- tərəvəz və bostan bitkiləridir.

Cənubi Muğan kanalı 4 rayonun əkin sahələrini suvarır. Dilqəm Şərifov bildirib ki, Cənubi Muğan Kanalı İstismarı İdarəsi respublikanın dörd rayonunun əkin sahələrinin suvarılmasına xidmət edir. Bunlar Cəbrayıl, İmişli, Biləsuvar və Cəlilabad rayonlarıdır. İdarənin balansında 136 km magistral kanallar var ki, ondan 46 km beton üzlüklü, 90 km isə torpaq məcrarlı kanallardır. Magistral kanallar üzərində isə 168 ədəd texniki qurğu mövcuddur. Onlardan 38 ədəd körpü, 36 ədəd hidropost, 24 ədəd səviyyəqaldırıcı qurğu, 68 ədəd isə suburaxıcı qurğulardır. Hazırda idarə plana uyğun olaraq kanallarda lildən təmizləmə işlərini həyata keçirir.




İlin əvvəlində Cənubi Muğan Kanalı İstismarı İdarəsinin əməkdaşları Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti rəhbərliyinin tapşırığı əsasında rayon ərazisində yerləşən bütün kəndlərdə sudan istifadə edən mülkiyyətçilərlə görüş keçirib. Görüş zamanı sudan qənaətlə və səmərəli istifadə olunması, növbəlilik qrafikinə əməl edilməsi, gecə suvarması zamanı suyun kollektor-drenaj şəbəkəsinə axıdılmasına yol verilməməsi mövzularında maarifləndirmə işləri aparılıb. Bundan başqa idarə tərəfindən cari ildə Təzə Cənubi Muğan, Köhnə Cənubi Muğan və Maşın qolu kanallarında lildən təmizlənmə işləri davam etdirilib. Əlavə olaraq kanallar üzərində olan hidrotexniki qurğular və istismar yolları da təmir olunub. Bundan başqa idarənin balansında olan nasos stansiyalara baxış keçirilərək təmir olunub və yenidən istismara verilib.

Qeyd edək ki, Cənubi Muğan Kanalı İstismarı İdarəsi Biləsuvar, Cəlilabad, İmişli və Cəbrayıl rayonlarının 85 min hektara yaxın əkin sahəsinin suvarılmasına xidmət edir.

Beyləqanda əkin sahələrinin suvarılması üçün 1300 metr kanal beton üzlüyə alınıb. Dilqəm Şərifov bildirib ki, Beyləqan Suvarma Sistemləri idarəsi 2 mənbədən, Qarabağ kanalı vasitəsilə Kür çayından, Baş Mil Kanalı vasitəsilə isə Araz çayının suyundan istifadə etməklə rayon ərazisində 50539 hektar torpaq sahəsinin suvarılması ilə məşğul olur. Suvarılmanın daha da yaxşı aparılması üçün idarənin balansında olan 117 ədəd subartezian quyularından istifadə edilir. Rayonda suvarma əsasən öz axımı ilə aparılır. Suvarılmanın daha mütəşəkkil, daha səmərəli və itkisiz olaraq həyata keçirilməsi üçün idarə əsasən torpaq məcralı kanalların beton üzlüyə alınmasına üstünlük verir. Cari ildə 1300 metr uzunluğunda torpaq məcralı kanal beton üzlüyə alınıb.

Beyləqan Suvarma Sistemləri İdarəsi balansında olan torpaq sahələrinin şoranlaşmasının qarşısının alınması, qrunt sularının axıdılması üçün 1330 km-dən uzun kollektor-drenaj şəbəkəsinə xidmət edir. Hazırda texnikalar vasitəsi ilə istər kollektor-drenaj şəbəkələrində, istərsə də suvarma kanallarında lildən təmizləmə işləri davam edir. Bu il 128 km uzunluğunda kollektor-drenaj şəbəkəsi lildən təmizlənib. Bununla da görülən işlər nəticəsində torpaqların münbitləşməsinə şərait yaranıb.

Qeyd edək ki, Beyləqan Suvarma Sistemləri İdarəsi 7360 ha sahəni Qarabağ Kanalı vasitəsilə Kür çayından su götürməklə, 40200 hektardan artıq əkin sahəsini isə Baş Mil Kanalı vasitəsilə Araz çayından su götürməklə suvarır. Hazırda rayon ərazisində əkilən taxıl, pambıq, bostan-tərəvəz və digər kənd təsərrüfatı təyinatlı bitkilərin suvarılması davam edir.

***Hüseyn İsgəndərov***



# Ürəklərdə yaşayan qəhrəman ömrü

***Xalqımızın qəhrəmanlıq səhifəsinə yazılan adlardan biri də Cavid Əlikömək oğlu Sahratovdur. 30 ildən sonra əzəli, əbədi yurd yerimiz olan Qarabağı öz canı bahasına azadlığa qovuşduran bu Vətən sevdalısı Yardımlı rayonunun Əsədabad kəndində boya-başa çatmışdı. Qəhrəmanlığı ilə dastan yazan Cavidin ömür yolu 39 il oldu. Onu Vətəninə, xalqına verdiyi üçün əbədi olaraq ürəklərdə özünə yurd-yuva qurdu dağlar qartalı. Dövlətdə öz növbəsində qəhrəman oğlunu "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallara layiq gördü.***

Lap az yaşında yaxşı əməllərlə el-obada sevilən Cavid 2000-ci ildə hərbi xidmətə çağırılır. Ön xətdə canından artıq sevdiyi doğma Azərbaycanın keşiyində durur. Layiqli bir övlad kimi onun qarşısında borcunu şərəflə yerinə yetirir. Zabitlərin, əsgərlərin sevimlisinə çevrilir Cavid. Müddətli hərbi xidmətini başa vurduqdan sonra işğal altında olan müqəddəs Vətən torpaqların qisasını yağıdan almaq məqsədilə yenidən orduya yazılır. Əsl vətəndaş, vətənpərvər əsgər olduğu Vətən naminə gördüyü işlərindən bilinir...

Cavid Aprel döyüşlərində xüsusi şücaət göstərir. Səpdiyi qəhrəmanlıq toxumu Vətənin şanlı qələbəsindən müjdələr gətirir. Öz qanını, canını belə əsirgəmədən Qarabağın müdafiəsinə qalxır. Vətəni necə sevməyi, torpağı necə qorumağı elə Vətən torpaqları naminə müharibə meydanında sübut etmək istəyir. İkinci Qarabağ müharibəsi başlayan kimi Cavid bir müqəddəs amalın işığında düşmənlə döyüşə atılır. Qeyri-bərabər savaşlarda yağıya qan qusdurur. Vətən məhəbbəti döyüşdəndöyüşə Cavidə güc-qüvvət verir. Qəhrəman Vətən oğlunun son döyüşü oktyabrın 9-da Füzulidə olur. Öz xalqının xoşbəxt gələcəyi üçün çəkinmədən polad sinəsini Vətənə tuşlanan güllələrə sipər etməyi bacarır.

İndi minlərlə igid oğullar kimi, Cavidin adı da bütöv bir xalqın qəhrəmanlıq simvolunu yaşadır. Qərinələr ötəcək, xalqına, Vətəninə bağlı şərəfli həyatı gələcək nəsillərə də əsl həyat məktəbi olacaq.

Zəfər Orucoğlu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# "Azərlotereya" ASC şəhid övladları üçün təqaüd ayırdı

***Haqq-ədalət savaşımızda şücaətlə döyüşərək bizə qələbə hissini yaşadan şəhidlərimizin ailələrinə dəstək olmağı özünə borc hesab edən "Azərlotereya" ASC bu istiqamətdə yeni sosial layihəyə start verir.***

"Unikal" xəbər verir ki, "Əmanətə sadəqət" devizinə əsaslanan "Azərlotereya" ASC vətən uğrunda canlarından keçmiş İkinci Qarabağ Müharibəsi şəhidlərinin övladlarının parlaq gələcəyi naminə onları təqaüdlə təmin edəcək.

"Azərlotereya" ASC-nin təhsil təqaüdü Türkiyənin dövlət ali təhsil müəssisələrinin tələbəsi olan şəhid övladlarının təhsil haqqı və yaşayış xərcləri, həmçinin Azərbaycanda ali təhsil alan şəhid övladlarının yaşayış xərclərinin qarşılanmasını nəzərdə tutur.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə əməkdaşlığı ilə həyata keçiriləcək sosial layihə ilkin mərhələdə 32 nəfəri əhatə edəcək ki, onlardan hazırda 25-i Azərbaycanda, 7-si isə Türkiyədə təhsil alır.

Təhsilin tərəqqisinə yönələn layihələrə dəstək göstərməkdə maraqlı olan "Azərlotereya" ASC bu sferada Təhsil Nazirliyi və və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə əməkdaşlığa davam edəcək.

Qeyd edək ki, "Azərlotereya" ASC-nin təqaüd proqramı cari və növbəti illərdə Azərbaycanda və Türkiyədə ali təhsil almaq istəyən şəhid övladlarına da şamil olunacaq.



## İsrail parlamenti buraxılıb, növbəti seçkilərin vaxtı açıqlanıb

***İsrail Knesseti (parlament) özünün buraxılması haqqında qanun layihəsini təsdiqləyib.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, deputatlar qanun layihəsini ikinci və üçüncü oxunuşda müzakirə ediblər. Sənədin qəbul edilməsindən sonra 24-cü çağırış Knessetin buraxılması elan olunur, Baş nazir postu isə koalisiya razılaşmasına müvafiq olaraq Naftali Bennetdən xarici işlər naziri Yair Lapidə keçir. O, noyabrın 1-nə planlaşdırılan yeni parlament seçkilərinə qədər hökumətə rəhbərlik edəcək.

Kan radiosunun məlumatına görə, baş nazir səlahiyyətlərin təhvil verilməsi bu gün günorta saatlarına planlaşdırılır. Qarşıdakı seçkilərdə iştirak etmək üçün namizədlərin partiya siyahıları sentyabrın 15-dək Knessetə təhvil verilməlidir.

## Ukraynaya məxsus 15 taxıl vaqonu relsdən çıxdı

***Rumıniyada Ukraynaya məxsus 15 taxıl vaqonu relsdən çıxıb.***

"Unikal" xəbər verir ki, bunu Ukrzaliznitsia (UZ) idarə heyətinin sədri Aleksandr Kamışin bildirib.

"Bu vaqonlar Rumıniya limanında taxıl boşaldandan sonra boş qayıdan 32 vaqondan ibarət qatarın bir hissəsi idi. Qatarda olan 32 vaqonun hamısı Ukraynanın özəl operatoruna məxsusdur", - Kamışin "Telegram" kanalında yazıb.

Təfərrüatlar araşdırılır.

*Ağarza Elçinoğlu*

## Rusiyanın 330 milyardlıq aktivləri donduruldu

***ABŞ Maliyyə Nazirliyi Rusiyanın dünya üzrə ümumilikdə 330 milyard dollarlıq aktivinin müsadirə edildiyini açıqlayıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, nazirliyin məlumatına görə, sanksiyaya məruz qalmış rusiyalı şəxslərin 30 milyard dollar vəsaitini və Rusiya Mərkəzi Bankının 300 milyard dollarlıq aktivini dondurulub.

"Rusiya Mərkəzi Bankının 300 milyard dollarlıq aktivləri əməliyyat qrupu tərəfindən hərəkətsizləşdirilib, yaxtalar və dəbdəbəli daşınmaz əmlaklar da müsadirə edilib, dondurulub və ya saxlanılıb", - məlumatda deyilir.

*Gülayə Mecid*

## Zurabişvili özünütəcrid rejiminə keçdi

***Gürcüstan Prezidenti Salome Zurabişvili özünütəcrid rejiminə keçib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident Administrasiyasından bildirilib.

Qeyd edilib ki, dövlət başçısı koronavirusa yoluxan şəxslə təmasda olub. Maksimal ehtiyatlılıq üçün S.Zurabişvili müvafiq testdən sonra adi iş mühitinə dönəcək.

# "Paşinyan suverenliyimizin altına qoyulan bombadır" - Akopyan

***"Nikol Paşinyan dövlətçiliyimizin, suverenliyimizin altına qoyulan canlı bombadır".***



"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, bunu Ermənistan Milli Assambleyanın "Ermənistan" fraksiyasının deputatı Vahe Akopyan yerli KİV-lərdən birinə açıqlamasında deyib.

Deputat ötən gün Paşinyanın keçirdiyi mətbuat konfransındakı çıxışlarına fikir bildirib.

"Paşinyan bu mətbuat konfransı vasitəsilə bir neçə problemi həll etməyə çalışıb. Əsas mesaj təbii ki, Laçın dəhlizinin, Berdzorun və ətraf kəndlərin təhvil verilməsi ilə bağlı ictimaiyyətin məlumatlı olması idi. Hesab edirəm ki, mətbuat konfransının əsas məqsədlərindən biri məsuliyyəti özündən uzaqlaşdırmaq, başqalarının üzərinə atmaq idi. Bu da yeni deyil.

Onun məqsədi öz cəmiyyətini qorxutmaq idi. Sizi əmin edirəm ki, o, Ermənistan silahlı qüvvələrini gözdən salan bəyanatlar verməklə dünya gündəminə düşür. Bir sözlə, Paşinyan dövlətçiliyimizin, suverenliyimizin altına qoyulan canlı bombadır".

*Gülayə Mecid*

# İranda vəbaya yoluxma artıb

***İranın qərbində yerləşən Kürdüstan vilayətində vəbaya yoluxanların sayı 25 nəfərə yüksəlib.***

"Unikal"ın məlumatına görə, bunu İranın Kürdüstan Tibb Elmləri Universitetinin ictimai əlaqələr şöbəsinin rəsmisi Bəhram Kəndayi deyib.

Onun sözlərinə görə, ən çox yoluxma halı vilayətin Mərivan rayonunda qeydə alınıb. Belə ki, bu rayonda 22 nəfər infeksiyaya yoluxub.

Kəndayi əlavə edib ki, yoluxanların 1 nəfəri xəstəxanaya yatırılıb, qalanları isə stasionar şəkildə müalicə olunurlar.

İranlı rəsmi qeyd edib ki, infeksiyaya yoluxmanın qarşısını almağın ən asan yolu çirkli su, meyvə və göyərtilərin istifadə olunmamasıdır.



# Rusiya Ukraynanın İlan adasını tərk etdi

***Rus ordusu Zmeynini (İlan adası - red.) tərk etdilər.***



"Unikal" xəbər verir ki, bu barədə Ukrayna "Cənub" əməliyyat komandanlığı məlumat yayıb.

Bildirilib ki, Ukrayna qoşunlarının növbəti uğurlu əməliyyatından sonra ruslar qarnizonun qalıqlarını tələsik təxliyyə edib, indi yanğın və partlayışlar var: "Gecə saatlarında Zmeynı adasında raket və artilleriya bölmələrimizin atəş zərbələri ilə həyata keçirdiyi hərbi əməliyyatın növbəti uğurlu mərhələsi nəticəsində düşmən iki sürətli qayıqla qarnizonun qalıqlarını tələsik şəkildə təxliyyə edib və ehtimal ki, adanı tərk edib. İndi Zmeinı alov bürüyür, partlayış səsləri eşidilir".

Komandanlıq əlavə edib ki, əməliyyatın yekun nəticələri araşdırılır.

*Ağarza Elçinoğlu*

# Bayden Ərdoğana F-16-larla bağlı vəd verdi

***ABŞ Prezidenti Cozef Bayden və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan NATO sammitində görüş zamanı Ankaraya F-16 qırıcılarının tədarükü məsələsini müzakirə ediblər.***

"Unikal"ın məlumatına görə, bu barədə NTV telekanalı xəbər verib.

Telekanalın Ağ Evdəki mənbələri bildiriblər ki, danışıqlar zamanı Amerika lideri həmkarına sazişin Konqresdən keçməsi üçün müəyyən səylər göstərəcəyinə söz verib.

Söhbət 40 yeni "F-16 Block 70" qırıcısından və Türkiyənin mövcud təyyarələrinin təkmilləşdirilməsi üçün 80-ə yaxın komplektdən gedir. Ağ Evdən verilən rəsmi açıqlamalara görə, Bayden və Ərdoğan Ankaraya F-16-ların tədarükü məsələsini həqiqətən müzakirə ediblər, lakin ABŞ-ın Prezident Administrasiyası Baydenin hər hansı vədi faktını hələ təsdiqləməyib.



# Meksikada daha bir jurnalist qətlə yetirildi

***Meksikanın Tamaulipas ştatında daha bir jurnalist qətlə yetirilib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, "Expreso" qəzetində işləyən Antonio de la Kruz Viktoriya əyalətinin silahlı hücumu nəticəsində öldürülüb.

Sonuncu qətllə bu ilin əvvəlindən ölkədə öldürülən jurnalistlərin sayı 12-yə yüksəlib.

Sərhədsiz Reportyorlar Təşkilatının (RSF) məlumatına görə, 2000-ci ildən bəri ölkədə öldürülən jurnalistlərin sayı 150-ni ötüb.



# “Qəbələ”, yoxsa “Qarabağ” üçün gələcək?

***S “Qəbələ”nin Konfrans Liqasının II təsnifat mərhələsindəki rəqibi “Fehervar” aparıcı futbolçusu ilə yollarını ayıra bilər.***




Apasport.az saytının Rumıniya mətbuatına istinadən məlumatına görə, Macarıstan klubunun mərkəz müdafiəçisi Adrian Rus başqa klubdan təklif alıb.
Maraqlıdır ki, Rumıniya millisinin üzvü “Qarabağ”ın Çempionlar Liqasının I təsnifat mərhələsindəki rəqibi “Lex”in transfer gündəmindədir. Poznan təmsilçisi bu keçid üçün qarşı tərəfə 500 min avro ödəməyə hazırdır. Ancaq “Fehervar” rəhbərliyi Rusu komandada saxlamaq niyyətindədir. Hətta bunun üçün ona daha yüksək məvaciblə yeni maaş da təklif edib. Futbolçu özü isə qərar verməkdə çətinlik çəkir. “Lex”ə keçəcəyi təqdirdə, Çempionlar Liqasında oynamaq şansı onun Polşaya köçməsinə səbəb ola bilər.
Qeyd edək ki, “Qarabağ”la “Lex” arasında oyunlar iyulun 5-də və 12-də, “Qəbələ” ilə “Fehervar”ın matçları isə 21-27-də keçiriləcək.

# “Hapoel” Kadi Borqesdən əl çəkmir

***Beer-Şeva “Hapoel”i “Qarabağ”ın yarımmüdafiəçisi Kadi Borqesin transferində israrını davam etdirir.***
Apasport.az saytı xəbər verir ki, bu barədə İsrail mətbuatı məlumat yayıb.
Bildirilib ki, ön xətt üçün bir neçə oyunçu ilə danışıq aparan “Hapoel” rəhbərliyi üçün prioritet məhz braziliyalı hücumameyilli oyunçudur.
Beer-Şeva klubunun 400 min avroluq ilk təklifi qəbul edilməyib. Məqalədə vurğulanıb ki, israillilər keçidin həllinə inanırlar: “Qarabağ” aparıcı futbolçusunun transferi üçün yüksək məbləğ tələb edir. Ancaq Azərbaycan təmsilçisi Kadinin müqaviləsinin gələn ilin yayına qədər olduğunu da başa düşür. Futbolçu klubu ilə yeni sözləşmə bağlamasa, 2023-cü ilin yayında azad agent kimi oranı tərk edəcək. Bu üzdən “Qarabağ” əsas ulduzlarından biri olan Borqesi bu yay sata bilər”.
Ancaq “Hapoel” rəhbərliyi Kadi Borqes məsələsi üzərində çox dayanmayacaq. Danışıqlar yaxın müddətdə müsbət nəticə verməsə, klub başqa variantlara yönələcək.
Qeyd edək ki, Kadi Borqes ötən mövsüm 12 qolla Premyer Liqanın




bombardiri olub. Onun “Qarabağ”la müqavilə müddəti 2023-cü ilin yayına qədərdir.

# Uels millisinin sabiq futbolçusuna Azərbaycandan təklif

***Uels millisinin sabiq futbolçusu Neyl Teylor karyerasını Azərbaycanda davam etdirə bilər.***
Apasport.az saytı xəbər verir ki, bu barədə Britaniya mətbuatı məlumat yayıb.
Bildirilib ki, 33 yaşlı sol cinah müdafiəçisi Premyer Liqa təmsilçimizin maraq dairəsindədir. Lakin həmin klubun adı açıqlanmayıb. Teylorun Azərbaycanla yanaşı, Hindistan və Türkiyədən də təklifləri olduğu vurğulanıb. Son mövsümü “Midlsbro”da keçirən təcrübəli oyunçunun İngiltərə klubu ilə müqaviləsi başa çatdığından, hazırda azad agent statusu daşıyır. O, eyni zamanda “Ridinq”in də transfer siyahısındakı alternativlər sırasındadır.



Qeyd edək ki, karyerası ərzində “Suonsi” və “Aston Villa”dakı çıxışı ilə tanınan Neyl Teylor 2010-2019-cu illərdə Uels yığmasının şərəfini qoruyub.

# “Barselona” 3 futbolçunu məşqə buraxmır

***“Barselona” bir neçə futbolçusuna iyulun 4-də başlayacaq təlim-məşq toplanışına qoşulmamaları barədə xəbərdarlıq edib.***
Apasport.az saytının məlumatına görə, rəhbərlik konkret olaraq 3 oyunçuya yeni klub axtarmasını tapşırıb. Bunun üçün isə onlara əlavə bir həftə istirahət imkanı verilib. Baş məşqçi Xavi Ernandesin sərəncamında görmək istəmədiyi həmin oyunçular müdafiəçilər Samuel Umtiti, Oskar Mingeza və yarımmüdafiəçi Rikard Puçdur.
Adıçəkilən futbolçular isə yalnız “Barsa”da aldıqları maaşı ödəməyə razı olan kluba keçməyə hazır olduqlarını bildirib.



# İdmançılarımız 3 medal qazandı

***İtaliyanın paytaxtı Romada keçirilən U-20 Avropa çempionatında yunan-Roma güləşi üzrə Azərbaycan milli komandası daha 3 medal qazanıb.***
”Unikal” xəbər verir ki, yığma üzvləri bu gün 1 gümüş, 2 bürünc medala sahib olublar.
72 kq çəki dərəcəsində yer alan Qurban Qurbanov finalda macarıstanlı Attila Toesmaqiyə 1:2 hesabı ilə uduzaraq, ikinci yeri tutub. 60 kq çəkidəki Nihat Məmmədli 3-cü yer uğrunda görüşdə isveçli İlyas Ayhana 6:0, 67 kq-da Kənan Abdullazadə isə israilli Şon Nadergina 6:1 hesabı ilə qalib gəlib.



Beləliklə, yunan-Roma güləşçiləri Avropa çempionatında ümumilikdə 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıb. Daha əvvəl Nihat Quluzadə (55 kq) və Laçın Vəliyev (87 kq) qızıl medala sahib olub.



# AFFA rəsmisi Çempionlar Liqasının oyununa təyinat alıb

***AFFA-nın Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri, AFFA İcraiyyə Komitəsinin üzvü Könül Mehdiyeva UEFA-dan yeni təyinat alıb.***
O, Slovakiyada Bratislava “Slovan”ı ilə Gürcüstanın ”Dinamo” (Batumi) komandası arasında keçiriləcək Çempionlar Liqasının birinci təsnifat mərhələsinin ilk oyununun UEFA nümayəndəsi olacaq.
Görüş iyulun 6-da keçiriləcək.

# "Qarabağ" klubu Rumıniya komandası ilə heç-heçə edib

***Avstriyada təlim-məşq toplanışında olan Ağdamın ”Qarabağ” futbol klubu sonuncu yoxlama oyununu keçirib.***



Azərbaycan çempionu günün ikinci matçında Rumıniyanın ”Universitatya Krayova” komandası ilə qarşılaşıb. Görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.
Ağdam təmsilçisinin heyətində Filip Ozobiç fərqlənib.
Qeyd edək ki, ”Qarabağ” günün ilk matçında Almaniyanın ”Holştayn Kiel” komandası ilə görüşdə də heç-heçə edib - 2:2.

# Çin Super Liqasına TƏKLİF

***Futbol eksperti Ozan German Çin Super Liqasının bu gün keçiriləcək 7-ci tur oyunlarına kupon təklif edib.***



Apasport.az saytının məlumatına görə, mütəxəssis üç qarşılaşmaya qoyuluş etməyə üstünlük verir.
Təklif edilən variantın əmsalı 7,05-ə bərabərdir.
Ozan German proqnozsevərlərə bir qədər riskli mərc etməyi məsləhət görüb.
“Hebey” - “Uxan”: H/T - 2
“Beytzin Qoan” - “Çendu Sinçen”: 1
“Quançjou” - “Uxan Sançjen”: H/T - 1,5 ÜST